


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 81 (24.218)

*9 may 2023-cü il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 12, maddə 688; 2000, № 7, maddə 494; 2002, № 8, maddə 464; 2004, № 1, maddə 10, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddə 202; 2005, № 10, maddələr 874, 876, 902; 2006, № 11, maddə 927; 2007, № 1, maddə 1, № 2, maddə 82; 2009, № 6, maddə 399, № 11, maddələr 877, 878; 2010, № 11, maddə 944; 2011, № 4, maddə 269, № 7, maddə 611, № 11, maddə 987; 2012, № 6, maddə 519; 2014, № 3, maddə 237; 2016, № 6, maddələr 1012, 1017; 2017, № 12 (I kitab), maddə 2238; 2018, № 2, maddə 146; 2020, № 7, maddə 856; 2021, № 5, maddə 432; 2022, № 8, maddə 831, № 12, maddə 1367) aşağıdakı dəyişikliklər edilsin:

1. 8-ci maddənin birinci hissəsinin altıncı abzası və 14-1-ci maddə ləğv edilsin.

2. 12-ci maddə üzrə:

2.1. beşinci hissənin üçüncü abzası ləğv edilsin;

2.2. on üçüncü hissədən "Naxçıvan Muxtar Respublikasının Hərbi prokuroru" sözləri çıxarılsın.

3. 16-cı maddənin birinci hissəsindən "Naxçıvan Muxtar Respublikasının Hərbi prokurorunun" sözləri çıxarılsın.

4. 29-cu maddənin beşinci hissəsindən "Naxçıvan Muxtar Respublikasının Hərbi prokuroru" sözləri çıxarılsın.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 11 aprel 2023-cü il*

## "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 859-VIQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 859-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun əsasında Naxçıvan Hərbi Prokurorluğu yaradılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 859-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Baş Prokurorluğuna tövsiyə edilsin ki, "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 859-VIQD nömrəli Qanunundan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 6 may 2023-cü il*

## İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin

## Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "İncəsənət xadimləri üçün Azərbaycan Respublikası Prezidentinin mükafatlarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 28 may tarixli 707 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Səhnə fəaliyyəti ilə bağlı aşağıdakı aparıcı incəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatları verilsin:

Abdullayeva Xurşud Lütfəli qızı
Abdurahmanov Yusif Fikrət oğlu
Adıgözəlov Yalçın Vasif oğlu
Ağakişiyev Rauf Fikrət oğlu
Ağasiyev Tural Aydın oğlu
Ağasoy Həsən Vəliqulu oğlu
Ağayev Miraslan Əzizəli oğlu
Ağayev Ziya Səbuhi oğlu
Allahverdiyev Ceyhun Kərim oğlu
Allahverdiyeva Naibə Siyavuş qızı
Arsentyeva Olqa Anatolyevna
Aslanova Elmira Ramazanovna
Atakişiyeva Asya Çingiz qızı
Atakişiyeva Mətanət Ağazair qızı
Babayeva Töhfə Ağaəli qızı
Bağırova Sənubər Yusufovna
Baliyeva Natalya Gennadyevna
Barateliya Naala Raulyevna
Bayramov Təyyar Allahverdi oğlu
Bəşirov Xanlar Əyyub oğlu
Cəbrayılov Elşən Şahin oğlu
Cəfərov Samir Qadir oğlu
Dubovitskaya Mariya Aleksandrovna
Eyvazov Nadir Samir oğlu
Eyvazova Ayan Fuad qızı
Eyyubov Musa Eyyub oğlu
Əbdülsəmədova Zemfira Feyzulla qızı
Əbilova Könül Allahverdi qızı
Əfəndi Elçin Fərahim oğlu
Əfəndiyeva Xəlilova İlahə Əhsan qızı
Əhmədov Bağır Kənan oğlu
Əhmədov Çingiz Əli Əşrəf oğlu
Əhmədov İlyas Əhməd oğlu
Əhmədova Aynur Əhməd qızı
Ələkbərzadə Mehriban Zaur qızı
Əlili Hüseyn Azad oğlu
Əliyarov Elvin Bahadur oğlu
Əliyev Ələkbər Həsən oğlu
Əliyev İqbal Adil oğlu
Əliyev Samir Asəf oğlu
Əliyev Sərvər Bəhlul oğlu
Əliyeva Nərgiz Arzu qızı
Əliyeva Ülkər Sabir qızı
Əlizadə Şəhla Seidşah qızı
Əmirbəyova Rita Cəmil qızı
Əsgərov Əsgər Əkbər oğlu
Əzizov Əzizağa Ağayar oğlu
Fətullayeva Aygün Bəhruz qızı
Gözəlova İradə Vaqif qızı
Hacıyeva Sevil İnşalla qızı
Hadı-zadə Kərəm Əmirəli oğlu
Haxverdiyev Behruz Əyyub oğlu
Heybətov Anar Mithət oğlu
Həbibov Nicat Əli oğlu
Həbibova Azadə Həsən qızı
Həsənquliyev Kazım Feyruz oğlu
Həsənov Kərim Abbas oğlu
Həsənova Natavan Mikayıl qızı
Həsənova Səbirə Nasif qızı
Həşimzadə Xanlar Allahverdi oğlu
Hüseynov Elnur Bəhrəmxan oğlu
Hüseynov Rövşən Maqsud oğlu
Hüseynova İlahə Həsən qızı
Hüseynova Kamilla Fikrət qızı
Xanlarova Mehriban Aslan qızı
Xasiyev Səmədzadə Nadir oğlu
Xəlilzadə Rüfət Eldar oğlu
İbişov Tahir Fidayə oğlu
İbrahimova Nigar Rəfael qızı
İbrahimova Şəhla İbrahim qızı
İmanov Əbülfəz Hüseyn oğlu
İmranova İnna Aleksandrovna
İskəndərova Sənubər Sabir qızı
İsmayılova Şəhla Əli qızı
İsrafilov Fərhad Ramazan oğlu
Kazımov Nicat Mirəziz oğlu
Kərimduxt Rövşən Ramazan oğlu
Kərimov Elnur Umbay oğlu
Kərimov Loğman Seyfulla oğlu
Qəmbərli Ayaz Vahab oğlu
Quliyev Aydın Baloğlan oğlu
Quliyev Cəmil Elşad oğlu
Quliyev Elxan Əli Bala oğlu
Quliyev Ələsgər Kamran oğlu
Quliyev Əyyub Ramiz oğlu
Quliyev Hafiz Məhərrəm oğlu
Quliyeva Səbinə Kasumovna
Quliyeva Şəlalə Şahvələt qızı
Qurbanov Cahangir Qafar oğlu
Qurbanova Gülzar Qurban qızı
Qurbanova Pərvanə Yaqub qızı
Mehmandarov Mustafa Adil oğlu
Mehrəliyev Vüsal Akif oğlu
Məhərrəmov Firudin Əliməmməd oğlu
Məmmədli Şamil Kamil oğlu
Məmmədov Anar Ramiz oğlu
Məmmədov Sabir Novruz oğlu
Məmmədova Fəridə Kamal qızı
Məmmədova Günel Əzizağa qızı
Məmmədova Həcərxanım Cavanşir qızı
Məmmədzadə Nəsimi Əyyub oğlu
Məmmədzadə Səbinə Namiq qızı
Məsimov Qurban Abdulla oğlu
Mikayılov Mikayıl Şamil oğlu
Mir-Qasım Ayan Oqtay qızı
Mirzəyev Gülağası Ağa Hüseynoviç
Mirzəyev Rafiq İsmayıl oğlu
Mirzəzadə Nicat Qərib oğlu
Musayeva Şükufə İmran qızı
Mustafayev Arzu Əhməd oğlu
Mustafayev Vüsal Sədaqət oğlu
Mustafayeva Laləzar Bəşir qızı
Nağıyev Qasım Gəncəli oğlu
Nəbiyeva Mehri Rasim qızı
Nəsibova Rada Ziyad qızı
Nəzərov İlham İslam oğlu
Niftəliyeva Nurbəniz Nurəddin qızı
Nuriyev Cavad Fərhad oğlu
Oduşev Timur Vladislavoviç
Orucova Naidə Mülük qızı
Orucova Sevda Nəbi qızı
Osmanov Fuad Tacəddin oğlu
Ömərov Gümrah Rza oğlu
Poladov Əkrəm Nicad oğlu
Rəsulov İsrafil Fərhad oğlu
Rüstəmov Elşən Mərdan oğlu
Rüstəmov Rüstəm Qərib oğlu
Rzayeva Nigar Azər qızı
Rzayeva Vəfa Əliseyran qızı
Rzayev-Sarabski İsfar Aydın oğlu
Sadıqov Anar Babalı oğlu
Salahov Əbülfət Yusif oğlu
Salmanov Nicat Fərhad oğlu
Seyidova Ceyla Uran qızı
Səfərova İlahə Qiyas qızı
Səlimli Mirbala Seyidəsgər oğlu
Səmədov Samir Səməd oğlu
Səmədov Şükür Hacıbala oğlu
Şahaliyev Elxan Savalan oğlu
Şirinov Asif Əhməd oğlu
Şirinov Aslan Adil oğlu
Tağızadə Mahir Tahir oğlu
Vahabzadə Səbinə Qulam qızı
Vəliyeva Leyli Fətulla qızı
Vəliyeva Nigar Natiq qızı
Yahyayev Taleh Saleh oğlu
Zaliyeva Mehriban Əskərəli qızı
Zeynalov Azər Zeynalabdın oğlu
Zəki Mehriban Mürvət qızı
Zülfüqarova Əminə Cahangir qızı.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. "İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 10 may tarixli 3246 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 5, maddə 488) 1-ci hissəsi ləğv edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 6 may 2023-cü il*

## Bugünkü Şuşa reallıqları Ümummilli Liderimiz Heydər Əliyevin gerçəkləşən arzularıdır

### *Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşaya səfər ediblər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 8-də Şuşaya səfər ediblər.

Dövlətimizin başçısı və birinci xanım Əhmədbəyli-Füzuli-Şuşa magistral avtomobil yolunun 66-81-ci kilometrliyində görülən işlərlə tanış olublar.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, başlanğıcını M6 Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürməklə işğaldan azad edilən Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarını birləşdirən 81,7 kilometr uzunluğundakı Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun beynəlxalq magistral normalarına uyğun tikintisi sürətlə davam etdirilir. Yolun 66-81-ci kilometrliyində işlərin 85 faizi başa çatıb. Uzunluğu 15,72 kilometr olan bu hissədə yolun hərəkət sahəsinin eni 10,75 metr, torpaq yatağının eni isə 21,5 metrdir. Dövlətimizin başçısının tapşırığına əsasən Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınaraq, dörd hərəkət zolaqlı olmaqla 1b texniki dərəcəyə uyğun inşa edilir.

Qeyd edildi ki, layihəyə əsasən yolun bu hissəsində 5 viadukun (dərə üzərində körpü), 6 tunelin və bir körpünün tikintisi üzrə əsas işlər yekunlaşıb. Hazırda həm viaduklarda, həm də tunellərdə son tamamlanma işləri icra olunur. Viadukların tikintisi zamanı Azərbaycanda ilk dəfə olaraq aşırım qəliblərin

*Ardı 2-ci səhifədə*





üfüqi sürüşdürülməsi üsulu ilə betonlama işləri yerinə yetirilib. Yolun bu hissəsində suların ötürülməsini təmin etmək məqsədilə müxtəlifölçülü 15 dairəvi suötürücü boru, 24 düzbucaqlı su keçidi, 4 alt keçid və bir neçə ehtiyat keçid inşa edilib.

Dövlətimizin başçısı və birinci xanım görülən işlərlə bağlı videoçarxa baxdılar.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazisində icra olunan və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biri sayılan Əhmədbəyli-Füzuli-Şuşa avtomobil magistralının tikintisinin 2024-cü ildə başa çatdırılması planlaşdırılır.

* * *



Mayın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Daşaltı kəndində Zarıslıçay nasos stansiyasının açılışında iştirak ediblər.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov dövlətimizin başçısına Şuşa şəhərinin içməli su təchizatı, kanalizasiya və yağış suları sistemləri haqqında məlumat verdi.

Qeyd edək ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu tərəfindən 2020-ci il noyabrın 8-də Şuşa şəhəri işğaldan azad edildikdən qısa müddət sonra şəhərin içməli su təminatının bərpasına başlanılıb. Mütəxəssislər tərəfindən şəhərin su mənbələrinin, magistral xətlərin, paylayıcı şəbəkələrin və digər hidrotexniki qurğuların mövcud vəziyyəti araşdırılıb. Məlum olub ki, şəhəri su ilə təmin edən mənbələr və magistral kəmərlər erməni vandallar tərəfindən məqsədli şəkildə dağıdılıb və şəhərə suyun nəqli dayandırılıb.

Təxirəsalınmaz Tədbirlər Proqramına uyğun olaraq Kiçik Kirs mənbəyinin və Kiçik Kirs-Şuşa magistral su kəmərinin qəzalı hissələri qısa müddətdə təmir olunub və 2020-ci il noyabrın 25-də Şuşa şəhərinə suyun verilişi bərpa edilib. Eyni zamanda Şuşa şəhərinin digər mənbəyi – Zarıslı sugötürücü qurğusunun, uzunluğu 14,3 kilometr olan Zarıslı-Şuşa magistral su kəmərinin qəzalı hissələrinin bərpasına başlanılıb və 2020-ci il dekabrın 20-də bu mənbədən şəhərə suyun verilməsi təmin edilib.

Şəhərin perspektiv inkişafı nəzərə alınaraq, həmçinin ilin müəyyən dövrlərində Kiçik Kirs və Zarıslı mənbələrində məhsuldarlığın kəskin azalması səbəbindən alternativ su mənbəyinin yaradılması layihəsinin icrasına başlanılıb. Bu məqsədlə Daşaltı kəndinin yaxınlığında, Zarıslı çayının məcrasında tutumu 25 min kubmetr təşkil edən sutoplayıcı anbar, nasos stansiyası və diametri 159 millimetr, uzunluğu 2,9 kilometr olan yeni təzyiqli kəmər inşa edilib, eyni zamanda diametri 325 millimetr, uzunluğu 9,3 kilometr olan Kiçik Kirs-Şuşa magistral su kəmərinin istismara yararsız 5,2 kilometrlik hissəsi diametri 530-426 millimetr olan borularla əvəzlənib. Görülmüş işlərin nəticəsində 2022-ci ilin dekabrında yeni mənbədən suyun verilməsi ilə şəhərdə yaşayış olan evlər, dövlət




qurumlarının inzibati binaları, hotellər, ictimai iaşə müəssisələri və digər obyektlər fasiləsiz içməli su ilə təmin edilib.

Dövlətimizin başçısı nasos stansiyasını işə saldı.

Məlumat verildi ki, 2040-cı ilə perspektiv inkişaf nəzərə alınmaqla hazırlanan Şuşa şəhərinin su təchizatı, kanalizasiya və yağış suları sisteminin yenidən qurulması layihəsi 25 min nəfərin tələbatının ödənilməsinə hesablanıb. Layihəyə əsasən şəhərin orta gündəlik su tələbatı 105 litr-saniyə təşkil edir. Şəhərə içməli su mövcud Kiçik-Kirs, Zarıslı mənbələrindən, həmçinin Zarıslıçay su anbarından veriləcək. Gələcəkdə Zarıslıçay su anbarı genişləndiriləcək və tutumu 25 min kubmetrdən 7,5 milyon kubmetrə çatdırılacaq. Eyni zamanda məhsuldarlığı sutkada 8 min kubmetr olan içməli sutəmizləyici qurğu inşa olunacaq. Şəhərin su təchizatında dayanıqlığın təmin olunması məqsədilə ümumi həcmi 6 min kubmetr olan 3 su anbarı layihələndirilib və hazırda onlardan birinin tikintisi davam etdirilir.

Layihəyə əsasən Şuşa şəhərində 24 kilometr magistral su kəməri, 44 kilometr içməli, 42 kilometr tullantı və 41 kilometr yağış su şəbəkələri inşa olunacaq. Şəhərdə formalaşan tullantı suların tam təmizlənib zərərsizləşdirilməsi məqsədilə məhsuldarlığı sutkada 8 min kubmetr olan qurğu inşa ediləcək. Qurğuda emal edilərək təmizlənən su ekoloji duruma zərər vurmadan Qarqarçaya axıdılacaq. Şuşa şəhərində yaradılan yeni infrastruktur "Ağıllı su" sistemi əsasında idarə olunacaq. Suyun mənbədən götürülməsi, nəqli, anbarların səviyyəsi, hidravlik rejimlər və digər proseslər SCADA sistemləri vasitəsilə onlayn rejimdə tənzimlənəcək. 2023-cü ilin ikinci yarısında məhsuldarlığı sutkada 8 min kubmetr olan içməli sutəmizləyici qurğunun inşası nəzərdə tutulur ki, bu işlərə də 7,4 milyon manat vəsait sərf olunacaq.

**AZƏRTAC**

# Naxçıvanda "Heydər Əliyev və Azərbaycanın xarici siyasəti" mövzusunda konfrans keçirilib





Müstəqil Azərbaycanın memarı və qurucusu Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə keçirilən silsilə tədbirlər çərçivəsində ölkəmizdə akkreditə olunmuş, iqamətgahı Bakıda və Ankarada yerləşən diplomatik korpusun nümayəndələri, eləcə də hərbi attaşelər Naxçıvan şəhərində səfərdə olublar.

Ümumilikdə, 80-ə yaxın ölkədən və 23 təşkilatdan 140-a yaxın diplomatın və hərbi attaşenin iştirak etdiyi səfər Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzindəki abidəsinin ziyarət olunması ilə başlayıb.

Sonra Heydər Əliyev Muzeyinə gələn qonaqlar Ümummilli Liderin həyat və fəaliyyətinə aid fotoşəkil və eksponatlarla tanış oldular. Ulu Öndərin hər kəsə örnək olan çoxşaxəli siyasi fəaliyyəti, o cümlədən həyatının Naxçıvan mərhələsi haqqında xarici qonaqlara ətraflı məlumat verilib.

Diqqətə çatdırılıb ki, Naxçıvan şəhərinin Heydər Əliyev prospektində yerləşən muzeydə Ulu Öndərin ailəsinə, onun uşaqlıq və gənclik illərinə həsr olunmuş stendlər, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrə aid sənəd və materiallar, imzaladığı məktub, qərar, sərəncam və müqavilələrin surətləri nümayiş olunur. Muzeyin kitabxanasında Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən jurnal, albom və kitablar, film və qəzet materialları da sərgilənir.

Daha sonra Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar Naxçıvanda xarici diplomatların və hərbi attaşelərin iştirakı ilə "Heydər Əliyev və Azərbaycanın xarici siyasəti" mövzusunda tədbir keçirilib.

Tədbirdə çıxış edənlər Ulu Öndər Heydər Əliyevin zəngin həyat yolundan, o cümlədən onun fəaliyyətinin Naxçıvan mərhələsindən, Ümummilli Liderin Azərbaycan xalqının

*Ardı 3-cü səhifədə*







rifahı, ölkəmizin müstəqilliyinin möhkəmlənməsi və davamlı inkişafı istiqamətində yorulmaz fəaliyyətindən danışıblar.

Müasir Azərbaycanın beynəlxalq münasibətlər sistemində öz layiqli yerini tutmasında, dövlətimizin müstəqil xarici siyasət strategiyasının formalaşmasında Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətləri vurğulanıb. Qeyd olunub ki, Heydər Əliyevin xarici siyasət strategiyası bu gün onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və yeni-yeni hədəflərə istiqamətlənir.




Diqqətə çatdırılıb ki, ömrünü Azərbaycanın tərəqqisinə həsr edən dahi şəxsiyyət Heydər Əliyev Vətən və xalq qarşısında müstəsna xidmətlər göstərib, ölkəmizin beynəlxalq aləmə inteqrasiyası istiqamətində mühüm işlər görüb.

Eyni zamanda Ümummilli Liderin həyat və fəaliyyətinin örnək olduğu qeyd edilib, onun zəngin irsinin öyrənilməsinin, təbliğinin və gələcək nəsillərə çatdırılmasının önəmi vurğulanıb.

Həmçinin bildirilib ki, Ermənistanın işğalçılıq siyasəti və dekonstruktiv mövqeyi səbəbindən Naxçıvan Muxtar Respublikası 30 ilə yaxın müddətdə blokada şəraitində qalıb. Qeyd edilib ki, Zəngəzur dəhlizinin açılması ilə həm blokadaya son qoyulacaq, həm də muxtar respublika özünün tranzit-nəqliyyat imkanları ilə bütün bölgənin iqtisadi inkişafına töhfə verəcək.




Tədbir çərçivəsində Ümummilli Lider Heydər Əliyevin həyatına və siyasi fəaliyyətinə həsr edilmiş videoçarx nümayiş olunub.

Tədbirin bədii hissəsində Naxçıvan Dövlət Universitetinin simfonik orkestri konsert proqramı ilə çıxış edib.

Naxçıvan səfəri çərçivəsində xarici diplomatlar və hərbi attaşelər, həmçinin şəhərin mədəni-tarixi və turizm məkanları ilə də tanış olublar.

**AZƏRTAC**

## Naxçıvanda yaşayan 2700 ailəyə ərzaq yardımı edilib

*Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Naxçıvan Muxtar Respublikasına gəlib.*



Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar olaraq konfederasiya tərəfindən digər bölgələrlə yanaşı, Naxçıvanda yaşayan şəhid və qazi ailələrinə, sağlamlıq imkanları məhdud və az-təminatlı 2700 ailəyə ərzaq yardımı edilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfliyə məlumat verilib ki, Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında yaşayan aztəminatlı ailələr üçün verilən bağlamalar müxtəlif zəruri ərzaq məhsullarından ibarətdir.

Sovqatlardan ibarət 6 avtomobil təyinatı üzrə ünvanlara yola salınıb.

Səttar Möhbalıyev “Şərq qapısı” qəzetinə müsahibəsində bildirib ki, 2022-ci ildən bu günədək 75 min ailəyə ərzaq yardımı göstərilib, 100 mindən çox insana maliyyə yardımı göstərilir. Şəhidlərin övladı 18 yaşına çatanadək həmkarlar ittifaqları şurası tərəfindən himayəyə götürülüb və onlara hər ay pul yardımı göstərilir. Əgər uşaqlar universitetə qəbul olacaqsa, bu yardım davam etdiriləcək. Naxçıvanda Aprel döyüşlərindən bu günədək nə qədər şəhid övladı varsa, hamısı konfederasiya tərəfindən himayəyə götürülüb. AHİK “YAŞAT” Fonduna qazilərin həm ölkədə, həm də xaricdə müalicəsi üçün milyonlarla vəsait ayırıb. Bundan əlavə, Qarabağ Dirçəliş Fonduna 1 milyon 800 min manatdan artıq vəsait köçürülüb. Bundan başqa, Naxçıvanda şəhid ailələrinin özünüməşğulluq təminatı ilə bağlı 500 min manat vəsait ödənilib. Əlavə 500 min manat dəyərində Naxçıvandan olan bir sıra sakinlərin sanatoriyalara göndərişini təmin edilib. Kiçik və orta sahibkarlığın inkişafı fonduna da 300 min manat vəsait ayrılıb. AHİK çalışır ki, olunan bütün müraciətlər yerinə yetirilsin. Bu, növbəti aksiyadır, bütün bayramlarda Bakıda və Naxçıvanda aztəminatlı ailələrə yardımlar edəcəyik. 2022-ci ildən bu günədək Naxçıvanda 7 mindən artıq vətəndaşa ərzaq yardımı göstərilib. Bakıdan Naxçıvana maliyyə yardımları milyonlarla gəlir. “Ölkəmizi tanıyaq” layihəsinin bütün maddi təminatını da həmkarlar ittifaqları konfederasiyası edib.

**Ceyhun MƏMMƏDOV**

## H.N.Kərimova Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin vəzifələrini müvəqqəti icra etmək səlahiyyətinin verilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram**:

Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin vəzifələrini müvəqqəti icra etmək səlahiyyəti nazir müavini Həsən Nizami oğlu Kərimova verilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini** **Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 8 may 2023-cü il*

## N.T.Qədimovanın Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri vəzifəsindən azad edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Natavan Tofiq qızı Qədimova Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini** **Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 8 may 2023-cü il*

## Naxçıvanda *“Heydər Əliyev siyasi məktəbi”* layihəsinin açılışı olub



Azərbaycan Respublikası Milli Məclisinin deputatı Kamal Cəfərovun təşəbbüsü və “PAŞA Holding” Məhdud Məsuliyyətli Cəmiyyətinin dəstəyi ilə keçirilən “Heydər Əliyev siyasi məktəbi” layihəsinin Naxçıvanda açılışı olub.

“Yüksəliş” müsabiqəsinin qalibi olmuş Sabirabad rayonunun fəal gəncləri ilə Heydər Əliyev Muzeyində keçirilən görüşdə layihə rəhbəri, Milli Məclisin deputatı Kamal Cəfərov bildirib ki, “Heydər Əliyev siyasi məktəbi” layihəsinin məqsədi Ulu Öndər Heydər Əliyevin müxtəlif dövrlərdə tətbiq etdiyi idarəçilik modelinin əsasında Sabirabad fəallarının siyasi hazırlığını yüksəltmək durur. Layihə çərçivəsində dahi şəxsiyyət Heydər Əliyevin siyasi fəaliyyəti 6 dövr üzrə rəmzi seçilmiş məkanlarda, Ulu Öndərin fəaliyyətinin bir hissəsi olmuş vəzifəli şəxslərlə qeyri-rəsmi formada öyrəniləcək. Ulu Öndər Heydər Əliyevin tələbəlik və gənclik illərini əhatə edən birinci dövr müvafiq olaraq Naxçıvan şəhərini əhatə edir.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli bildirib ki, məhz 1990-1993-cü illərdə dahi şəxsiyyət Heydər Əliyev Naxçıvana rəhbərlik etdiyi üçün muxtar respublika işğala məruz qalmadı, Naxçıvan ağır sosial-iqtisadi vəziyyətdən xilas oldu. İlk dəfə olaraq üçrəngli bayrağımız Naxçıvanda Ulu Öndərimizin təşəbbüsü ilə Ali Məclisin sessiyasında rəsmi dövlət bayrağı kimi təsdiq olundu. Bu, müstəqilliyə gedən yolun başlanğıcı idi.

Görüşdə çıxış edən AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev layihənin 1-ci hissəsinə uyğun olaraq Ümummilli Lider Heydər Əliyevin gənclik və tələbəlik illəri barədə geniş məlumat verib. Dahi rəhbər Heydər Əliyevin müəllimləri Lətif Hüseynzadə, Şeyx Məhəmməd Rasizadə, Tofiq Bəktaşi, Həsənbəy Qazıyev və tələbə yoldaşları ilə münasibətləri barədə heç bir yerdə yazılmayan xatirələrdən danışıb.

Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev Ümummilli Liderin təhsil və elmin inkişafına verdiyi töhfələrdən, elm xadimlərinə göstərdiyi dəstəkdən bəhs edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin köməkçisi Ramiz Məmmədov Ulu Öndər Heydər Əliyevin Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi illərlə bağlı xatirələrini bölüşüb, həmin çətin dövrdə baş vermiş Sədərək döyüşləri, Ulu Öndərin Naxçıvanın qorunub saxlanılması, sosial-iqtisadi böhranın aradan qaldırılması istiqamətində atdığı tarixi addımlar, qardaş Türkiyə ilə münasibətlərin qurulmasındakı misilsiz xidmətlərindən danışıb.

Tədbirdə iştirak edən gənclərə hədiyyələr təqdim olunub.

**Xəbərlər şöbəsi**

# Azərbaycan dahi şəxsiyyət Heydər Əliyevin əsasını qoyduğu uzaqgörən xarici siyasətin bəhrəsini görür

*Prezident cənab İlham Əliyevin 2022-ci il 28 noyabr tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə əlaqədar xalqımızın Ümummilli Lideri, müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi muxtar respublikamızda da möhtəşəm tədbirlərlə qeyd olunur. Keçirilən silsilə tədbirlər çərçivəsində ölkəmizdə akkreditə olunmuş, iqamətgahı Bakıda və Ankarada yerləşən diplomatik korpusun nümayəndələri, eləcə də hərbi attaşelər Naxçıvan şəhərində səfərdə olub, "Heydər Əliyev və Azərbaycanın xarici siyasəti" mövzusunda tədbirdə iştirak ediblər. Dünya şöhrətli siyasi xadimin yüzillik yubileyinin onun doğma Vətəni Naxçıvanda yüksək təşkilatçılıqla qeyd olunması qonaqlarda zəngin təəssürat yaradıb.*

"Zəngəzur dəhlizinin açılması ilə Naxçıvanın blokadasına son qoyulacaq". Bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev tviterdəki hesabında yazıb.

"Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi Naxçıvanda, doğulduğu yerdə Bakıda yaşayan və Ankaradan akkreditə olunmuş diplomatik korpusla birgə qeyd edilib. Zəngəzur dəhlizinin açılması ilə Naxçıvanın blokadasına son qoyulacaq və bütün region üçün yeni imkanlar yaranacaq" Hikmət Hacıyev qeyd edib.

Xarici ölkə səfirləri "Şərq qapısı" qəzetinə müsahibələrində özünəməxsus dövlətçilik ənənələri olan qədim Naxçıvanda olmanın sevincini bölüşərək tədbirin əhəmiyyətindən, əsası Ulu Öndərəmiz tərəfindən qoyulan uzaqgörən xarici siyasətin bugünkü davamından danışıblar.

Naxçıvanda olan ***Türk Dövlətləri Təşkilatının baş katibinin müavini Yerjan Mukaş*** müsahibəsində deyib: "Heydər Əliyevin yüzillik yubileyinə həsr olunmuş tədbirdə iştirak etmək üçün



buradayam. Bu, simvolikdir, çünki təşkilatımız 2009-cu ildə sammit zamanı Naxçıvanda yaranıb. Mənim üçün ikiqat şərəfdir, çünki mən Qazaxıstanın Azərbaycandakı səfirliyində də çalışmışam. Naxçıvanda olmağıma çox şadam. Bütün təşkilatçılara öz minnətdarlığımı bildirirəm. Bütün Azərbaycan xalqını Ümummilli Lider Heydər Əliyevin yüzillik yubileyi münasibətilə təbrik edirəm. Heydər Əliyev təkcə Azərbaycanın deyil, bütün Türk dünyasının dahi şəxsiyyəti idi. O, Türk dünyasında körpü rolunu oynayırdı. Düşünürəm ki, bu cür insanlar dünyaya yüz ildə bir dəfə gəlirlər. Hər kəsi bu əlamətdar tarix münasibətilə təbrik edirəm. Bu cür tədbirin iştirakçısı olmaqdan qürur duyuram".

***Fransanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Ann Buayon***: "Bu gün diplomatik heyətlə Naxçıvana səfər etdiyim üçün çox xoşbəxtəm. Bu mənim Naxçıvana ilk səfərimdir. Bu gün Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illiyi ilə bağlı keçiriləcək tədbirdə iştirak edirik. Fransa və Azərbaycan arasındakı diplomatik əlaqələr, bildiyiniz kimi, mühüm əhəmiyyət kəsb edir. Bunu xüsusilə vurğulamaq istərdim ki, müstəqil Azərbaycanın banisi Heydər Əliyevin Fransaya ilk diplomatik səfəri 1993-cü ildə baş tutub. Belə ki, 1993-cü ildə Heydər Əliyev Fransanın prezidenti ilə görüşüb. Bu görüş hər iki dövlət arasında mühüm əhəmiyyət daşıyır. Həmin səfərdən sonra Fransa və Azərbaycan arasında beynəlxalq münasibətlərin təməli qoyuldu. Naxçıvana gəldiyimiz ilk andan bəri gördüklərim, muzeydəki eksponatlar məni heyran etdi. Fransanın xarici işlər naziri ötən həftə Azərbaycana səfər etmişdi. Bu da ölkələrarası diplomatik əlaqələrin genişlənməsində mühüm rol oynayır. Hər zaman Fransa və Azərbaycan arasında istər siyasi, istərsə də mədəni əlaqələr yüksək səviyyədə olub. Fransa və Azərbaycan arasında əlaqələrin yüksək səviyyədə olması iki ölkə Prezidentinin apardığı uğurlu xarici siyasət və iki ölkə arasındakı münasibətlərdən irəli gəlir. Hər iki tərəf əlaqələrin inkişafı üzərində daim işləyir, addımlar atırlar. Biz Azərbaycanla daha sıx münasibətdə işləyirik".



***Çex Respublikasının Azərbaycandakı səfiri Milan Sedlaçek:*** "Naxçıvanda olduğuma görə çox şadam, çünki bu diyara mənim ilk səfərimdir. Cənab Heydər Əliyevin doğma Vətənində olduğum, Heydər Əliyev Muzeyini ziyarət etdiyim üçün çox şadam. Bu dahi şəxsiyyəti görmədiyim üçün çox təəssüflənirəm. Çex Respublikasının ilk prezidenti Vatslav Qavelin Heydər Əliyevlə birgə ötən əsrin 90-cı illərində çəkilmiş fotoşəklini xatırlayıram. Məhz həmin dövrdə Azərbaycan və Çex respublikaları arasında mövcud olan əlaqələr yüksələn xətlə inkişaf etdi. Hər iki dövlət başçısı yaxşı siyasətçi, diplomat idi".



Səfir bu il Çex Respublikası ilə Azərbaycan arasında mövcud olan diplomatik əlaqələrin 30 illiyinin qeyd edildiyini də vurğulayıb, bununla bağlı böyük hazırlıq işlərinin görüldüyünü, bir sıra tədbirlər həyata keçirildiyini diqqətə çatdırıb. O deyib: "Əvvəldə də qeyd etdiyim kimi, ilk dəfədir ki, Naxçıvana gəlirəm. Şəhərinizin səliqə-sahmanına, təmizliyinə, möhtəşəmliyinə heyran oldum. Ümid edirəm ki, günün davamında görəcəklərim məndə daha da gözəl təəssüratlar yaradacaq".

**Ceyhun MƏMMƏDOV**

# Ümummilli Liderin yubileyi ilə əlaqədar sosial yönümlü tədbir keçirilib

Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları əvvəlcə dahi şəxsiyyətin Naxçıvan şəhərində əzəmətlə ucaldılan abidəsi önünə gül dəstələri düzüb, öz ehtiramlarını ifadə ediblər. Daha sonra Heydər Əliyev Muzeyi ziyarət olunub.

Sonra Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə imtiyazlı şəxslərin putyovka və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu tərəfindən maddi yardımla təmin edilməsi məqsədilə tədbir keçirilib. Əvvəlcə Ümummilli Liderimiz Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən övladların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli çıxış edərək bildirib ki, şəhid ailələri, qazilər və Vətən müharibəsi iştirakçıları üçün Ulu Öndər tərəfindən əsası qoyulan sosial siyasət bu gün ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir, bu kateqoriyadan olan şəxslərin sosial-məişət şəraitinin yaxşılaşdırılması, mənzil və avtomobillərlə təmin olunması üçün proqramlar icra edilir.

Vurğulanıb ki, dövlət başçısının müvafiq Sərəncamı ilə ölkəmizdə yeni idarəetmə modelinə keçid reallaşdırılır. Naxçıvan Muxtar Respublikasında da artıq bir neçə aydır, ali idarəetmə koordinasiyasını icra edən nümayəndəlik institutu yaradılıb. Nümayəndəlik insanların rifahı yönündə, sosial təminatlarının yaxşılaşdırılması istiqamətində mütəmadi olaraq təklif və layihələrlə çıxış edir. Şəhid ailələri, qazilər və Vətən müharibəsi iştirakçıları ilə görüşlər təşkil olunur, onları narahat edən məsələlər araşdırılaraq müvafiq işlərin həyata keçirilməsi üçün tapşırıqlar verilir, onların icrası məsələsi diqqətdə saxlanılır. Bütün fəaliyyətin əsas məqsədi vətəndaş məmnunluğunu yaratmaq, insanların sosial rifahının yüksəldilməsinə nail olmaqdır. Təqdirəlayiq haldır ki, sosial layihələrin, proqramların icrasında





Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi də üzərinə düşən vəzifələrin öhdəsindən uğurla gəlir. Ümummilli Liderin yubileyi münasibətilə keçirilən bu tədbir də imtiyazlı şəxslərin sağlamlaşdırılması, rifah halının yüksəldilməsi istiqamətində genişmiqyaslı layihələrin tərkib hissəsidir.

Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Ceyhun Cəlilov çıxışında Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan sosial siyasətin bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla icra olunduğunu diqqətə çatdırıb, muxtar respublikada həyata keçirilən sosial layihələrdən, məşğulluq proqramlarından danışıb. Nazir qeyd edib ki, Ümummilli Liderimiz tərəfindən 1993-2003-cü illərdə geniş sosial proqram reallaşdırılıb, pensiya və müavinətlər 8 dəfə, əməkhaqları 6 dəfə artırılıb. Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi, uzaqgörən fəaliyyəti nəticəsində istər sosial məişət, istərsə də məşğulluq sahəsində layihələr uğurla reallaşdırılır. 44 günlük Vətən müharibəsində Ali Baş Komandanın rəhbərliyi ilə əsgər və zabitlərimizin böyük qəhrəmanlıq göstərdiklərini diqqətə çatdıran əmək və əhalinin sosial müdafiəsi naziri vurğulayıb ki, Vətən yolunda canından keçən oğulların xatirəsi dövlətimiz tərəfindən daim əziz tutulur, şəhid ailələrinə maddi dəstək göstərilir, sağlamlıqlarını itirənlər yüksək tibbi xidmət və vasitələrlə təmin olunur, müalicələri təşkil edilir. Ümummilli Liderimizin 100 illik yubileyi ilə əlaqədar keçirilən bu tədbir də sosial imtiyazlı şəxslərə göstərilən qayğının növbəti təzahürüdür və qarşıdakı dövrdə də bu yöndə daha geniş layihələr həyata keçiriləcək.

Tədbirdə şəhid anası Gülşad Rüstəmova, şəhid atası Mayis Gülməmmədov, Vətən müharibəsi iştirakçısı Mirkənan Kərimov çıxış edərək şəhid ailələri, qazilər və müharibə iştirakçılarına göstərilən qayğıdan söhbət açıb, dövlətimizə minnətdarlıq ediblər.

Sonra Ümummilli Lider Heydər Əliyevin yubileyi münasibətilə müvafiq kateqoriyadan olan 34 şəxsə sanatoriya-kurort putyovkaları verilib, 57 nəfərə isə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu tərəfindən maddi yardım olunub.

Sonda Ümummilli Lider haqqında hazırlanan film nümayiş edilib.

Tədbir başa çatdıqdan sonra ***Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Ceyhun Cəlilov*** "Şərq qapısı" qəzetinə müsahibə verib: – Ulu Öndərin yubileyi ilə əlaqədar Naxçıvan Muxtar Respublikasında şəhid ailələrinə və müharibə vaxtı sağlamlığını itirən şəxslərə dövlətin növbəti dəstəyi həyata keçirilir. Məqsədimiz ondan ibarətdir ki, dövlətin həyata keçirdiyi siyasətin bu qəbildən olan insanlara ən yüksək səviyyədə çatdırılmasına nail olaq. Habelə bugünkü tədbirimiz çərçivəsində sağlamlığını itirmiş şəxslərə onların sağlamlığının bərpa olunması üçün sanator-kurort obyektlərinə göndərişlərin verilməsinə başlandı. Bu tədbirlər il ərzində mərhələli şəkildə davam edəcək. Hesab edirəm ki, imtiyazlı kateqoriyadan olan şəxslər dövlətin dəstəyini bütün istiqamətlər üzrə hiss edəcəklər. Hazırda muxtar respublikada sosial islahatların növbəti dalğası başlayıb. Bu məqsədlə məşğulluq tədbirlərinin artırılması üçün çox ciddi işlər görülməkdədir. Artıq muxtar respublikada 500 yeni haqqödənilən ictimai işlər açıq elan edilibdir. Və açılmış bu işlərə vətəndaşlarımızın cəlb olunması proseslərinə başlanılıb. Deməli olar ki, bu yöndə işlər ilin sonunadək mərhələli şəkildə aparılacaqdır.

Nazir qeyd edib ki, "Naxçıvan DOST İş Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin təsisi ilə muxtar respublikada haqqödənilən ictimai işlərə cəlb olunan vətəndaşların sayının artırılması planlaşdırılır: – Hesab edirəm ki, bu addımın məşğulluğun artırılmasına ciddi töhfəsi olacaqdır. Digər tərəfdən, ünvanlı sosial yardımın alınması üçün vətəndaşların dövlət tərəfindən maarifləndirilməsi tədbirlərinə artıq start verilib. Fikrimcə, aztəminatlı ailələrin ünvanlı sosial yardımla təmin olunması üçün dövlətin bu istiqamətdə ciddi maarifləndirmə işləri davam etməlidir. Çünki vətəndaşların bu istiqamətdə müəyyən məsələlərdə hüquqlarını bilməsinə ehtiyac vardır. Tərəfimizdən monitorinq qrupları artıq formalaşdırılıb və hər bir təsərrüfata ayrıca individual yanaşaraq onların maddi-məişət şəraitinin yoxlanılması, yerində təhlil olunması və onların ünvanlı sosial yardıma cəlb olunması üçün bu istiqamətdə işlərimiz davam edir. Əlilliyin qiymətləndirilməsi yönündə də artıq ciddi islahat addımları atılıbdır. Səhiyyə Nazirliyi ilə birlikdə işçi qrupu yaradılıb. Məqsədimiz vətəndaş süründürməçiliyinə son qoymaq, vətəndaşları maarifləndirmək, eyni zamanda onlara hüquqları barədə məlumat verməkdir. Həm Səhiyyə Nazirliyinin müvafiq təşkilatları, həm də Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin özü tərəfindən tibbi-sosial ekspert komissiyasının fəaliyyətini təkmilləşdirmək üçün birgə təşəbbüs çərçivəsində məsələlərə baxılır. Hesab edirəm ki, qısa müddətdə əlilliklə bağlı cəmiyyətdə formalaşmış mənfi fikir aradan qalxacaq. Bu məsələdə obyektivlik, şəffaflıq olduqca vacib məqamdır. Çünki məşğulluğun təmin olunması üçün bəzi hallarda vətəndaşları cəlb edəndə məlum olur ki, onların sağlamlığında müəyyən məhdudiyyətlər vardır. Bu halda işçi qrup fəaliyyətə dərhal müdaxilə edir və vətəndaşın əlilliyi qiymətləndirilir. Əgər vətəndaşın əlilliyi öz həqiqiliyini tapırsa, biz onun əlilliklə bağlı məsələsinə dərhal kömək edirik, bu da dövlətin sosial müdafiə sisteminin ən vacib elementlərindən biridir. Bugünkü gündə səlahiyyətli nümayəndəlik tərəfindən verilmiş tapşırıqların icrası istiqamətində ardıcıl işlər görülür. Həm məşğulluq, həm əməyin mühafizəsi, həm də sosial təminat, habelə əlillərin bərpa, uşaq bərpa mərkəzləri, Ahıllar Evində göstərilən sosial xidmətlərin keyfiyyətinin artırılması istiqamətlərində islahatlar aparılır və cəmiyyətə hesabatlığın yaradılması mexanizmi qurulur. Çünki burada ictimai nəzarət olduqca əhəmiyyətli məsələdir. Və bunun üçün ilkin addımlar atılıb. Nazirliyin qaynar xətti artıq bir aydır, fəaliyyət göstərir. Biz cəmiyyətdən çox ciddi müraciətlər alır və o müraciətlər əsasında fəaliyyətimizi həm təkmilləşdirir, həm də müvafiq istiqamətlərdə ölçü götürürük. Hesab edirəm ki, bu işlər ardıcıl və məqsədyönlü şəkildə görülsə, qısa müddətdə insanlar öz sosial rifahında bunun şahidi olacaqlar.

DOST mərkəzlərinin fəaliyyətinə toxunan Ceyhun Cəlilov bildirib ki, vətəndaşla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin qurumları arasında təmasın qurulması üçün DOST mərkəzlərinin yaradılması da vacib islahatlardandır: – Bilirsiniz ki, DOST Mərkəzi layihəsi Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyevanın təşəbbüsü əsasında ölkənin böyük hissəsində icra olunur və ciddi də nəticələr verir. Bu layihənin növbəti hissəsi kimi, Naxçıvanda DOST Mərkəzi, ardınca muxtar respublikanın rayonlarında DOST filiallarının yaradılması ilin sonunadək planlaşdırılır. Bununla da vətəndaş müraciətlərini "bir pəncərə" prinsipi ilə, bir nöqtədən operativ, şəffaf, çevik formada baxılma modelinin tətbiqinə nail olacağıq. Beləliklə, DOST mərkəzləri ilə Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin digər qurumlarının birgə fəaliyyəti vətəndaş məmnuniyyətinə yönəldiləcək. Və dövlətin vətəndaş mərkəzli siyasəti bizim bütün fəaliyyətdə öz əksini tapacaqdır. Qısa müddətdə bütün bu layihələrin icrası əhalinin rifahına yönəldilibdir, hesab edirəm ki, bu istiqamətdə nəticələr qısa müddətdə cəmiyyət tərəfindən xoş qarşılanacaqdır.

**Nail ƏSGƏROV**

# Sahibkarlarla görüş



Qida və xidmət sektoru üzrə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin fəaliyyətlərində qanunvericiliyin tələblərinə əməl olunması ilə bağlı sahibkarlarla görüş olub. Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyev açıb. Qeyd olunub ki, təbii ehtiyatlardan səmərəli istifadə etməklə iqtisadiyyatın sürətli inkişafını təmin etmək, əhalinin güzəranını və məşğulluğunu daha da yaxşılaşdırmaq baxımından sosial-iqtisadi inkişafla bağlı qəbul edilmiş Dövlət proqramları bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Qəbul olunmuş Dövlət proqramlarına uyğun olaraq Naxçıvan Muxtar Respublikasında yeni-yeni istehsal, xidmət sahələri yaradılmış, yeni sosial və infrastruktur obyektləri istifadəyə verilmiş və ya əsaslı bərpa edilmiş, tikinti-energetika kompleksi hərəkətə gətirilmiş, irimiqyaslı suvarma-meliorasiya tədbirləri həyata keçirilmişdir.

Vurğulanıb ki, muxtar respublikanın xammal ehtiyatlarına əsaslanaraq əhalinin tələbatının böyük həcmdə keyfiyyətli məhsul istehsal etmək gücündə olan müasir texnologiya əsasında yüzlərlə istehsal sahələri istifadəyə verilmişdir. Bundan əlavə, duz mədənində yeni şaxta və emal müəssisəsi tikilmiş, məhsul istehsalının həcmi yüksəlmiş, yeni iş yerləri yaradılmış, rəqabətədavamlı məhsul istehsalına başlanılmışdır.

Qeyd olunub ki, sahibkarlığın inkişafına xüsusi diqqət yetirilməsi, yeni iş yerlərinin açılması, əhalinin keyfiyyətli yerli məhsullara olan tələbatının ödənilməsi muxtar respublikada aparılan iqtisadi siyasətin əsas istiqamətlərindəndir. İqtisadiyyat Nazirliyi olaraq daim sahibkarların yanında olmaqla onlara hüquqi-maddi dəstək verməklə bərabər, istehlakçıların da hüquqlarının qorunması, vətəndaş məmnunluğunun təmin olunması da əsas vəzifələrimizdən biridir. Bütün bu qeyd olunanları diqqətə alaraq fəaliyyət sahənizdə mövcud olan problemlər tezliklə aradan qaldırılmalı, qanunun tələblərinə daim əməl edilməli və hakim olduğunuz istehsal və xidmət sistemi daha da təkmilləşdirilməlidir.

Diqqətə çatdırılıb ki, bu gün ticarət obyektləri muxtar respublikada istehsal olunan məhsulların satışını genişləndirməklə yeni iş yerləri açmağa, muxtar respublika büdcəsinə daxil olmaları artırmağa kömək etməklə əhalinin tələbatının daha dolğun ödənilməsini təmin etmiş olurlar. Ümid edilir ki, bu görüşdən sonra xidmət sektorunda qanunvericiliyin tələblərinə ciddi əməl olunmaqla əhaliyə yüksək və keyfiyyətli xidmət göstəriləcək, yerli istehsal məhsulları daha da keyfiyyətli, rəqabətədavamlı məhsul istehsalı üzrə ixtisaslaşacaq, daxili bazarın idxaldan asılılığı azalacaqdır. Sahibkarlığın inkişaf etdirilməsi, dövlətin sahibkara, iş adamına sahib çıxması iqtisadiyyatımızın dinamik inkişafına, əhalinin həyat şəraitinin yaxşılaşdırılmasına, yeni iş yerlərinin açılmasına, mövcud ictimai-siyasi sabitliyin daha da möhkəmlənməsinə xidmət edir. Bu səbəbdən də Ümummilli Liderimiz tərəfindən təməli qoyulmuş iqtisadi sistemin və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən yaradılan şəraitdən və göstərilən qayğıdan səmərəli istifadə etməklə, Ümummilli Liderimiz Heydər Əliyevin 100 illik yubileyinə töhfə olaraq muxtar respublika iqtisadiyyatı inkişaf etdirilməli, mövcud qida istehsalı və xidmət sahələri üzrə qanunun aliliyinə hörmətlə yanaşaraq öz işlərində dönüş yaratmalıdırlar.

Görüşdə Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin birinci müavini, nazirin vəzifələrini müvəqqəti icra edən Samiq Sadıxov səhiyyə sahəsində tətbiq olunacaq yeniliklərdən danışıb, gigiyena-epidemiologiya tədbirlərinin diqqətdə saxlanılmasının vacibliyini vurğulayıb. Bildirilib ki, əhaliyə göstərilən iaşə xidmətlərində gigiyena qaydalarına ciddi əməl edilməlidir. Həm istehsal, həm də xidmət sektorunun fəaliyyətində aparılan müşahidə, sorğu və vətəndaş müraciətlərini nəzərə almaqla bir sıra problemlərin mövcudluğu böyük narahatlıq hissləri yaradır. Samiq Sadıxov monitorinqlər zamanı aşkarlanan uyğunsuzluqların aradan qaldırılması ilə bağlı sahibkarlıq subyektlərinə bir sıra tövsiyələr verib.

Görüşdə Naxçıvan Muxtar Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin Qida təhlükəsizliyi şöbəsinin müdiri Orxan Orucovun və Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin direktor müavini Zakir Cəfərovun da çıxışları dinlənilib.

Sonda sahibkarları maraqlandıran mövcud problemlərlə bağlı müzakirələr olub.

**✍ Gülcamal TAHİROVA**

# "Sərhəd" hərbi-idman oyunlarında qalib olan komandanın üzvləri mükafatlandırılıb

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin, Elm və Təhsil, Gənclər və İdman nazirliklərinin birgə Tədbirlər Planı əsasında hər il təşkil olunan "Sərhəd" hərbi-idman oyunlarında Məhəmməd Füzuli adına Ordubad şəhər tam orta internat məktəbinin komandası I yerin qalibi olub. Qalib komandanın üzvləri ilə görüş keçirilib.

Görüşdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov bildirib ki, bu gün muxtar respublikada şagirdlərin təhsili ilə yanaşı, onların hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunması da daim diqqət mərkəzində saxlanılır.

Qeyd olunub ki, bu məqsədlə də gənclərin çağırışaqədərki hazırlığı fənnini tədris edən hərbi rəhbərlərin yeni təlim metodlarından istifadə bacarıqlarının və dərslərə yaradıcılıqla yanaşılması vərdişlərinin təkmilləşdirilməsi məqsədilə təlim toplantılar keçirilir. Hazırda muxtar respublika ümumtəhsil məktəblərində 208 hərbi rəhbər fəaliyyət göstərir.



Vurğulanıb ki, gənclərin çağırışaqədərki hazırlığı fənninin tədrisi şagirdlərin milli mənlik və vətənpərvərlik ruhunda böyüməsində mühüm rol oynayır. Buna görə də ümumtəhsil məktəblərində hərbi hazırlıq və idman dərslərinə mühüm əhəmiyyət verilir. Bunun nəticəsidir ki, son illər gənclər arasında hərbi təhsilə maraq da xeyli artmışdır. Belə ki, 2022-ci tədris ilində muxtar respublikanın ümumtəhsil məktəblərindən Heydər Əliyev adına Hərbi Liseyə 143, xüsusi təyinatlı məktəblərə isə 21 şagird qəbul olunmuşdur.

Muxtar respublikanın ümumtəhsil məktəblərinin şagirdlərinin hərbi-vətənpərvərlik istiqamətində keçirilən yarışlarda da yüksək nəticə əldə etdiyini diqqətə çatdıran təhsil naziri bildirib ki, ötən il Ordubad rayonunun Sabirkənd tam orta məktəbinin komandası "Şahin" hərbi-idman oyununda ölkə üçüncüsü olmuşdu. Bu il isə "Sərhəd" hərbi-idman oyunlarında Ordubad şəhər tam orta internat məktəbinin komandasının ölkə üzrə I yerin qalibi olması, ümumtəhsil məktəblərində hərbi hazırlıq dərslərinin yüksək səviyyədə tədris edildiyini göstərir.

Qeyd olunub ki, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş, ümumilikdə, üç mərhələdə keçirilmiş "Sərhəd" hərbi-idman oyunlarında 35 sərhədyanı və digər rayonların 161 məktəbinin 805 şagirdi iştirak etmiş, ilk iki mərhələnin yekunlarına görə 11 komanda aprel ayının 28-dən may ayının 4-dək final mərhələsində mübarizələrini davam etdirmişlər. Bildirilmişdir ki, Naxçıvanda keçirilən "Sərhəd" hərbi-idman oyunlarının rayon mərhələsində muxtar respublikanın sərhədyanı tam orta məktəblərini əhatə edən 16 komanda iştirak etmiş, onlardan 6-sı zona mərhələsinə vəsiqə qazanmışdı. Zona mərhələsində isə Ordubad şəhər tam orta internat məktəbinin komandası qalib kimi, final mərhələsində muxtar respublikanı təmsil etmişdir. Final mərhələsinin yekunlarına əsasən Ordubad şəhər tam orta internat məktəbinin "Xətailər" komandası birinci olmuşdu.

Təhsil naziri qalib komandanın üzvlərinə, məktəbin kollektivinə və hərbi rəhbəri Şaban Tağızadəyə təşəkkür edib, təhsildə uğurlar arzulayıb.

Məktəbin hərbi rəhbəri Şaban Tağızadə göstərilən diqqətə görə minnətdarlıq edib.

Sonda komandanın üzvlərinə Təhsil Nazirliyinin təşəkkürnamələri təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# "Heydər Əliyev siyasəti: tarix və müasirlik" monoqrafiyasının təqdimatı keçirilib



*AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin "Heydər Əliyev siyasəti: tarix və müasirlik" monoqrafiyasının təqdimatı keçirilib.*

Təqdimat mərasimini giriş sözü ilə Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Hacıfəxrəddin Səfərli açıb. Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqının yetirdiyi tarixi şəxsiyyət, xüsusi liderlik və idarəçilik bacarıqlarına malik dahi olduğunu vurğulayan professor bildirib ki, həyatını xalqın gələcək rifahına, müstəqil dövlətçiliyimizə həsr edən Ulu Öndər bu şərəfli missiyanı uğurla yerinə yetirmişdir. Azərbaycan xalqı və dövləti qarşısında göstərdiyi misilsiz xidmətləri onu tariximizə Ümummilli Lider kimi həkk etmişdir.

Hacıfəxrəddin Səfərli ölkə başçısı cənab İlham Əliyevin xüsusi Sərəncamı ilə 2023-cü ilin Azərbaycan Respublikasında "Heydər Əliyev İli" elan olunduğunu diqqətə çatdıraraq bildirib ki, ölkədə keçirilən müxtəlif tədbirlərlə yanaşı, dahi şəxsiyyətin siyasi irsi müxtəlif kitab və monoqrafiyaların tədqiqat mövzusu olmuş, sanballı əsərlər ərsəyə gəlmişdir. Belə monoqrafiyalardan biri də akademik İsmayıl Hacıyevin yenicə işıq üzü görən "Heydər Əliyev siyasəti: tarix və müasirlik" monoqrafiyasıdır. Akademikin elmi tədqiqatlarında Ulu Öndər Heydər Əliyevin həyatının və siyasi irsinin tədqiqi mühüm mərhələ kəsb edir, imzası Əliyevşünaslıqda xüsusi yer tutur. Dəqiqlik və hadisələrə obyektiv münasibət sərgiləyən alim yeni monoqrafiyasında Ümummilli Liderin siyasi fəaliyyətini tarix və müasirlik nöqteyi-nəzərindən araşdırmaya cəlb etmişdir.

Hacıfəxrəddin Səfərli çıxışının sonunda müəllifi təbrik edib, ona səmərəli elmi fəaliyyətində uğurlar arzulayıb.

Daha sonra Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Qafqaz tarixi şöbəsinin müdiri, tarix elmləri doktoru, dosent Emin Şıxəliyev "Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr edilmiş tədqiqat əsəri", İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Ədəbiyyatşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımov "Tarix və müasirlik kontekstində Heydər Əliyev siyasəti" mövzusunda məruzə ediblər.

Məruzələrdə "Heydər Əliyev siyasəti: tarix və müasirlik" monoqrafiyasında fəsillərin əhatə etdiyi mövzular şərh edilib. Diqqətə çatdırılıb ki, əsərdə mövzular kompleks şəkildə tədqiqata cəlb olunmuş, konseptuallıq kəsb edən məsələlər axıcı dillə təhlil olunmuşdur. Monoqrafiyada tarixi faktlarla yanaşı, müasir inkişafımızın bünövrəsini təşkil edən Heydər Əliyev ideyalarının bugünkü nəticələri vurğulanmışdır.

Mərasimdə çıxış edən İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev monoqrafiya haqqında yüksək elmi qənaətini bölüşüb.

Sonda monoqrafiyanın müəllifi, akademik İsmayıl Hacıyev çıxış edərək məruzəçilərə və tədbir iştirakçılarına təşəkkür edib. Ulu Öndər Heydər Əliyev irsini öyrənməyin maraqlı olmaqla bərabər, həm də böyük məsuliyyətindən danışıb. Ümummilli Lider haqqında xatirələrini dinləyicilərin diqqətinə çatdıran alim qeyd edib ki, görkəmli dövlət xadiminin siyasi irsinin hərtərəfliliyi bundan sonra da neçə-neçə kitab və monoqrafiyaların yazılacağını deməyə əsas verir.

Akademik İsmayıl Hacıyev sonda tədbir iştirakçılarını maraqlandıran sualları cavablandırıb.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

# Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə tədbir olub



Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsində tədbir keçirilib.

Tədbir iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsinin önünə gül dəstələri qoyub, xatirəsini ehtiramla yad edib, Heydər Əliyev Muzeyini ziyarət ediblər.

Tədbirdə komitənin sədri Hüseyn Bağırov çıxış edərək bildirib ki, bütün sahələrdə olduğu kimi, statistikanın inkişafı da Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Görkəmli dövlət xadiminin 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasında çətin şəraitdə həyata keçirdiyi mühüm tədbirlərin bir istiqaməti davamlı olaraq idarəetmənin təkmilləşdirilməsindən, bu sahədə mühüm islahatların aparılmasından ibarət idi. Həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyən Ümummilli Liderimiz Heydər Əliyevin 1993-cü il 3 aprel tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi yaradılıb, bu yeni strukturun hüquq və vəzifələri daha da artırılıb. Bu gün Ümummilli Lider Heydər Əliyev yolu Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Tədbir Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri Elman Cəfərlinin, Naxçıvan Dövlət Universitetinin Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Arzu Abdullayevin, Şərur Rayon Statistika İdarəsinin rəisi Ramiz Rəsulovun çıxışları ilə davam edib.

**Xəbərlər şöbəsi**

# Haçadağa "Sən elə bir zirvəsən" adlı yürüş



Naxçıvan Muxtar Respublikasının Hava və Ekstremal İdman Növləri Federasiyasının təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Haçadağa "Sən elə bir zirvəsən" adlı yürüş olub. Hava və Ekstremal İdman Növləri Federasiyasının, Türkiyə Dağçılıq Federasiyasının və Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən digər federasiyaların idmançılarından ibarət 34 nəfər dağçı əvvəlcə qrup rəhbəri tərəfindən təlimatlandırılıb və yürüşə başlanılıb.

Dağçılar dəniz səviyyəsindən 2415 metr yüksəklikdə olan Haçadağın zirvəsinə dırmanıblar. Zirvədə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra Azərbaycan və Türkiyə respublikalarının Dövlət himnləri səsləndirilib. Dırmanma tədbirini başa vuran dağçılar geri qayıdıblar.

Hava və Ekstremal İdman Növləri Federasiyası tərəfindən Haçadağın zirvəsinə qalxan dağçılara fəxri fərmanlar və Türkiyə Respublikasından gələn dağçıların rəhbərinə plaket təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Hava və Ekstremal İdman Növləri Federasiyası***

# İkinci Dünya müharibəsi – xalqımızın milli ruhunun təntənəsi, misilsiz şücaət və qəhrəmanlıq rəmzi

*İkinci Dünya müharibəsində faşist Almaniyası üzərində qazanılan qələbədən 78 il ötür. Bəşər tarixində silinməz izlər buraxan bu müharibəyə cəlb olunmuş keçmiş müttəfiq respublikalar içərisində Azərbaycan da var idi və o zaman istər ümumi əhaliyə nisbətən əsgər sayına, istərsə də döyüşçülərin təltif olunması faizinə görə ölkəmiz ən öncül sıralarda dayanırdı. Belə ki, 700 minə yaxın azərbaycanlı, başqa sözlə, respublika əhalisinin hər 5 nəfərindən biri cəbhədə vuruşub, onların 450 mini və ya 65 faizi orden və medallarla təltif edilib, 130 nəfər "Sovet İttifaqı Qəhrəmanı" kimi yüksək ada layiq görülüb.*



Müharibədə fədakarlıq göstərən azərbaycanlılardan ibarət təşkil edilən 416-cı "Taqanroq", 402-ci "Azərbaycan", 223-cü "Belqrad" və 77-ci "Simferopol" diviziyaları şərəfli döyüş yolu keçib, soydaşlarımızın, təxminən, yarısı ağır döyüşlərdə qəhrəmancasına həlak olub. Müharibənin taleyində muxtar respublikamız da böyük rol oynayıb, 402-ci diviziya Naxçıvanda formalaşdırılaraq cəbhəyə yola salınıb. Həmyerlilərimiz 223-cü diviziyanın tərkibində Macarıstan və keçmiş Yuqoslaviyanın faşistlərdən təmizlənməsində igidlik göstəriblər. Qürurlu haldır ki, 416-cı diviziya Şimali Qafqazdan Berlinədək ağır döyüş yolu keçib, diviziyanın əsgərləri Berlində qələbə bayrağını ilk qaldıranların sırasında olublar.

Müharibənin başlandığı gün – 1941-ci il iyunun 22-də Naxçıvan Muxtar Respublikasından 6492 nəfər orduya yollanıb. Ümumilikdə, 29 min 500 muxtar respublika sakini 1941-1945-ci illər müharibəsində iştirak edib. Müharibəyə könüllü gedənlərdən yüzə yaxını qadınlar idi. Cəbhəyə yollanan naxçıvanlıların hər iki nəfərindən biri – 16 minə yaxın insan həlak olub. Üç həmyerlimiz – Abbas Quliyev, Nəcəfqulu Rəfiyev və Qəzənfər Əkbərov SSRİ-nin ən yüksək mükafatına – Sovet İttifaqı Qəhrəmanı adına, Rəhim Rəhimov "Şöhrət" ordeninin hər üç dərəcəsinə layiq görülüb, 600 nəfər isə müxtəlif orden və medallarla təltif edilib. 102 nəfər "Şöhrət" ordeninin ayrı-ayrı dərəcələri, 105 nəfər birinci və ikinci dərəcəli "Böyük Vətən Müharibəsi", 315 nəfər "Qırmızı Ulduz", 29 nəfər "Qırmızı Bayraq" ordenləri ilə təltif olunublar. Həmin illərdə azərbaycanlılar arxa cəbhədə də fəallıqları ilə seçiliblər. Onlar ordunun ehtiyacını ödəmək üçün qüvvələri səfərbərliyə alıb, gecəni gündüzə qataraq yorulmaq bilmədən çalışıb, qələbənin qazanılmasına öz töhfələrini verməyə səy göstəriblər. O da xüsusi vurğulanmalıdır ki, faşizm üzərində tarixi qələbənin əldə edilməsində Azərbaycan nefti böyük rol oynayıb. Belə ki, həmin illərdə Sovet İttifaqında hasil olunan neftin dörddəüç hissəsi, aviasiya benzininin və yüksəkkeyfiyyətli sürtkü yağlarının 85-90 faizi Azərbaycanın payına düşürdü. Qələbənin təmin edilməsində həlledici rol oynamış sovet ordusunun tank və təyyarələrinin böyük əksəriyyəti Azərbaycan neftinin hesabına hərəkətə gətirilirdi. Bakı nefti olmasaydı, bu müharibədə hərbi əməliyyatları uğurla başa çatdırmaq mümkün olmazdı. Görkəmli akademik Yusif Məmmədəliyevin 1941-1945-ci illərdə neft kimyası sahəsində etdiyi ixtiralar isə, ümumilikdə, sovet Azərbaycanının o dövrdə qələbəsi idi.

Ölkəmizin bütün sənaye müəssisələri, xüsusən maşınqayırma zavodları silah və sursat istehsalı ilə məşğul idi. Müharibə dövründə Azərbaycanda 130 növ silah və sursat istehsal olunaraq cəbhəyə göndərilirdi. Bununla yanaşı, cəbhəyə kömək məqsədilə digər imkanlardan da istifadə olunurdu. Həmin dövrdə təkcə Naxçıvan Muxtar Respublikasından müdafiə fonduna 12 kiloqram qızıl və gümüş, 180 milyon 89 min manat nağd pul, 70 min ton ət və digər ərzaq məhsulları, 160 min dəstdən çox isti paltar, 10 mindən artıq bağlama göndərilib.

Vətən yolunda xidməti olan insanlardan heç vaxt qayğısını əsirgəməyən, 100 illik yubileyini möhtəşəm şəkildə qeyd etdiyimiz Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev azərbaycanlıların 1941-1945-ci illər müharibəsində göstərdikləri şücaətləri yüksək qiymətləndirərək deyirdi: ***"Veteranlar bizim qızıl fondumuzdur. Onlar hər cür qayğıya və hörmətə layiqdirlər. Azərbaycanın bütün ictimaiyyəti, bütün Azərbaycan xalqı bilməlidir ki, İkinci Dünya müharibəsinin veteranları bizim ən əziz, ən mötəbər insanlarımızdır. Onlara qayğı göstərmək, hörmət etmək, onların bütün problemlərini həll etmək bizim dövlətimizin və hər bir dövlət orqanının, hər bir Azərbaycan vətəndaşının borcudur".***

Görkəmli dövlət xadiminin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra 9 May respublikamızda "Qələbə Günü" kimi rəsmiləşdirilib, dövlət bayramları sırasına daxil edilib, müharibə veteranlarının sosial müdafiəsi ildən-ilə gücləndirilib. Onların xatirəsinin əbədiləşdirilməsi istiqamətində sistemli və ardıcıl tədbirlər görülüb, imtiyazları və statusları bərpa olunub.

***"Biz veteranlarımıza çox mehriban münasibət bəsləyirik. Onlara vaxtaşırı mənzillər, istirahət üçün sahələr, pul mükafatları ayrılır. Onlar xalqımızın fəxridir. Biz həlak olanların xatirəsinə də ehtiramla yanaşırıq və əminik ki, gənc nəslin qəhrəmanlıq və Vətənə məhəbbət ənənələrini davam etdirməsi üçün onlar məhz bu cür fədakar qəhrəmanlıq və Vətənə məhəbbət ruhunda tərbiyə olunmalıdırlar"***, – deyən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də 1941-1945-ci illər müharibəsi iştirakçılarına, arxa cəbhə veteranlarına xüsusi diqqət və qayğı göstərir, hər il 9 May – Qələbə Günü ərəfəsində müvafiq kateqoriyadan olan insanların birdəfəlik maddi vəsaitlə təmin edilməsi ilə bağlı Sərəncam imzalayır. Ölkə Prezidentinin İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakarlıq göstərmiş insanlara davamlı xarakter alan qayğısı hər bir azərbaycanlı tərəfindən rəğbətlə qarşılanır. "Böyük Vətən müharibəsi iştirakçılarının "Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi (1945-2020)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif edilməsi haqqında" 2020-ci il 1 may tarixli Sərəncam da bu təbəqədən olan vətəndaşlara dövlət başçısının verdiyi xüsusi önəmin növbəti göstəricisidir. "1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 26 aprel tarixli Sərəncamı bu kateqoriyadan olan şəxslərin sosial müdafiəsi ilə bağlı həyata keçirilən tədbirlərin davamıdır.

Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da müharibə veteranlarına xüsusi qayğı ilə yanaşılır, onların sosial müdafiəsi gücləndirilir, veteranlar sanatoriya və kurortlara göndərilir, minik avtomobilləri ilə təmin olunurlar. Muxtar respublikada 1941-1945-ci illərdə böyük şücaət və qəhrəmanlıq göstərmiş insanların keçdiyi şərəfli döyüş yolu gənc nəslin milli-mənəvi dəyərlər, hərbi-vətənpərvərlik ruhunda tərbiyəsində mühüm amilə çevrilib. Hər il 9 May – Qələbə Günü muxtar respublikada geniş şəkildə qeyd olunur. 1941-1945-ci illər müharibəsi qurbanlarının xatirəsinə ucaldılmış abidələr önündə tədbirlərin keçirilməsi, müharibə veteranlarına hədiyyələrin verilməsi və digər tədbirlər bu kateqoriyadan olan insanlara göstərilən diqqətin əyani ifadəsidir.

1941-1945-ci illər müharibəsi iştirakçılarının şərəfli ömür yolu sonrakı nəsillər üçün də bir məktəbdir və bugünkü gəncliyin vətənpərvərlik ruhunda tərbiyə olunmasında mühüm rol oynayır. Gənclərimizdə yüksək vətənpərvərlik ruhunu 2020-ci ilin sentyabr ayının 27-də başlanan İkinci Qarabağ müharibəsində bütün dünya bir daha gördü. Həmin gün Ermənistan silahlı qüvvələrinin bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək yaşayış məntəqələrimizi, hərbi mövqelərimizi atəşə tutmasına cavab olaraq ordumuz əks-hücuma keçdi. Xalqımız 44 gün davam edən Vətən müharibəsində dəmir yumruq kimi birləşərək Böyük Qələbəyə imza atdı, əzəli torpaqlarımız işğaldan azad olundu, Qarabağda, Şərqi Zəngəzurda, Şuşada, Laçında, Hadrutda, Laçın-Xankəndi yolunun başlanğıcında quraşdırılan sərhəd-buraxılış məntəqəsində dövlətçiliyimizin əsas atributlarından sayılan üçrəngli bayrağımız ucaldıldı, ata-baba yurdlarımız dirçəldilməyə başlanıldı, soydaşlarımızın böyük qayıdış prosesinə start verildi. Qazanılan hərbi-siyasi nailiyyətlər dövlət-xalq həmrəyliyinin, birliyinin, sarsılmaz iradənin, dönməz mövqenin təntənəsi kimi tarixə düşdü. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev "Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında" 2020-ci il 3 dekabr tarixli Sərəncamında deyildiyi kimi: *"Ermənistanın təxribatına və növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan xalqı torpaqlarımızın işğaldan qurtarılması, Ermənistanın sülhə məcbur edilməsi, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərinin yerinə yetirilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması və ədalətin bərpası üçün Vətən müharibəsinə başladı. Bu müqəddəs amal uğrunda bütün Azərbaycan xalqı səfərbər və həmrəy oldu... Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı".*

İkinci Qarabağ müharibəsində iştirak edən hər bir azərbaycanlı gənc ata-baba əmanəti sayılan torpaqlarımızın erməni faşistlərinin əsarətindən azad olunmasında qəhrəmanlıq göstərdi, şəhadətə yüksəldi, qazi, qalib kimi evinə qayıtdı, misilsiz Qələbə qazandı. Başqa sözlə, xalqımızın nümayəndələrinin 1941-1945-ci illər müharibəsində göstərdiyi qəhrəmanlığı mətin, əzmli gənclərdən ibarət müzəffər Azərbaycan Ordusu 75 il sonra bir daha təkrar etdi. Bu həm də nəsillər arasında varislik ənənələrinin müfəssəlliyi, milli ruhun, həmrəyliyin təntənəsi idi. Ulu babaları alman faşizmini məğlub etdiyi kimi, bugünkü qəhrəman gənclərimiz də erməni faşizminə eyni aqibəti yaşatdı. Alman faşizminin köləsi olan, minlərlə sovet hərbçisinin ölümünə imza atan Qaregin Njden atalarının ənənələrinə, ideyalarına sadiqliyi bariz şəkildə göstərən ermənilər I və II Qarabağ müharibəsi, atəşkəs dövründə törətdikləri terror aktları, vəhşiliklərlə, hətta nasistləri də geridə qoymağı bacardılar. 44 günlük Vətən müharibəsində dəfələrlə Azərbaycanın qədim, gözəl şəhərləri Gəncəni, Bərdəni raket atəşinə tutaraq "Xocalı cəlladları", "Uşaq qatilləri" damğası ilə nahaq yerə əbədilik ləkələnmədiklərini bütün dünyaya bir daha sübut etdilər. 2020-ci il 10 noyabr tarixində üçtərəfli Bəyanat imzalandıqdan sonra Azərbaycan növbəti dəfə humanizm nümayiş etdirərək qarşı tərəfə ərazilərimizdən çıxmağa möhlət versə də, ermənilər yenə öz xislətlərindən əl çəkməyərək fürsətdən sui-istifadə edib sonradan onlarla soydaşımızın ölümünə səbəb olan minalanma kampaniyası həyata keçirdilər. Müharibədən ötən dövr ərzində dəfələrlə təxribatlara əl atan Ermənistana layiqli cavab verən Müzəffər Ordumuz onu sülh sazişi imzalamağa sövq etsə də, təəssüf ki, qarşı tərəf humanizmdən bəhrələnmək əvəzinə vəziyyəti gərginləşdirməkdə, faşizm əqidəsindən dönməməkdə israrlıdır. Öz vətəndaşının rifahını hər şeydən üstün tutan Azərbaycan dövlətinin mövqeyi isə regionda sülh, əməkdaşlıq və inkişaf siyasəti aparmaq baxımından qətidir, birmənalıdır, dönməzdir. Son bir neçə il ərzində baş verən tarixi-siyasi hadisələr də kimin doğru, kimin yanlış yolda olduğunu göstərdi. Mayın 3-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Şuşada keçirilən "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda beynəlxalq konfransda dediyi kimi: ***"...Münaqişənin sülh yolu ilə həllini tapa bilməməsinin əsas səbəbi o idi, Ermənistan bunu istəmirdi. Onlar, sadəcə, bu taktikadan istifadə edirlər, prosesi ləngidirlər, bir addım irəli, iki, üç və ya hətta beş addım geriyə atırlar. Onlar vəziyyətin olduğu kimi qalmasını və onu dondurmaq istəyirdilər. Onlar düşünürdülər ki, işğalı legitimləşdirə biləcəklər. Düşünürdülər ki, biz öz ərazi bütövlüyümüzlə bağlı bir kompromisə gedəcəyik. Hesab edirdilər ki, onların beynəlxalq sponsorları həmişə onların yanında olacaq və onlar üçün mübarizə aparacaqlar. Lakin bu, səhv hesablanmış bir addım idi. Onlar yanlış idilər..."***

Bu gün böyük qürur hissi ilə qeyd edirik ki, 1941-1945-ci illərdə olduğu kimi, İkinci Qarabağ müharibəsində də naxçıvanlı gənclər böyük şücaət göstərdilər, torpaqlarımız uğrunda canlarından keçdilər. Təbii ki, bu, İkinci Dünya müharibəsi qəhrəmanlarının adını daim uca tutan, hər kəs üçün örnək sayan Ümummilli Liderimiz Heydər Əliyevin ideyalarına, yoluna ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən göstərilən sonsuz sədaqətin, illərlə aparılan mütərəqqi dövlət-gənclər siyasətinin, həyata keçirilən məqsədyönlü tədbirlər sayəsində gənclərdə formalaşmış Vətənə sevgi, torpağa, milli ruha bağlılığın məntiqi nəticəsi idi. Xalqımızın milli ruhunun təntənəsi, misilsiz şücaət və qəhrəmanlıq rəmzi sayılan İkinci Dünya müharibəsində igidlik göstərən, şərəf, ləyaqət dastanı yazan Vətən övladları heç zaman unudulmayacaq, onların keçdikləri döyüş yolu bundan sonrakı gənc nəsillər üçün də örnək, nümunə sayılacaq.

✍ Nail ƏSGƏROV

# "Dahi lider" adlı əsər Heydər Əliyev Muzeyinə təqdim edilib



Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvləri və əməkdaşları Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar olaraq Ümummilli Liderin əziz xatirəsini yad edərək abidəsi önünə gül qoyublar.

Sonra Azərbaycan Respublikasının Əməkdar rəssamı Telman Abdinovun "Dahi lider" adlı əsərinin muzeyə təqdimetmə mərasimi keçirilib. Tədbirdə Heydər Əliyev Muzeyinin direktoru, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Ramil Orucəliyev, Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı, Milli Məclisin deputatı Ülviyyə Həmzəyeva, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamları Cavid İsmayılov və Həbibə Allahverdiyeva çıxış ediblər.

Çıxışlarda vurğulanıb ki, görkəmli dövlət xadimi Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi dövrlərdə ədəbiyyat, mədəniyyət və incəsənət sahələrinə də hərtərəfli qayğı göstərmiş, istedadlı sənətkarlarımızın əməyini yüksək qiymətləndirmişdir. Ölkəmizin söz və sənət adamları da Ulu Öndərin parlaq obrazını öz əsərlərində əks etdirmişlər.

Sonda muzeyə baxış keçirilib.

✍ Aytac CƏFƏRLİ

# Heydər Əliyev İli 2023

*Hər bir xalqın müstəqilliyi üçün obyektiv zəminin formalaşması müəyyən mənada dahi şəxsiyyətin varlığı ilə bağlıdır. Siyasi baxışlarından asılı olmayaraq, əksər elm xadimləri etiraf edir ki, zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan xalqı üçün belə böyük tarix ötən əsrin ikinci yarısında – Ümummilli Lider Heydər Əliyevin 1969-cu ilin 14 iyulunda respublika rəhbəri seçilməsindən sonrakı mərhələdən başlamışdır. Ulu Öndərin respublikaya rəhbərlik dövrü çağdaş tariximizə mədəni və iqtisadi cəhətdən yüksəliş dövrü kimi daxil olmuş, xalqın milli mənlik şüurunun, özünüdərk hissinin güclənməsinə kömək etmiş, Azərbaycanda bütün sahələr üzrə intibaha əsaslı zəmin yaratmışdır.*

## Ümummilli Lider ölkəmizdə demokratik dəyərlərə əsaslanan hüquq və məhkəmə sisteminin yaradıcısıdır




XX əsr Azərbaycan tarixinin dahi, fenomen şəxsiyyəti kimi Ulu Öndər Heydər Əliyev şərəfli ömür yolunun 40 ilə yaxın bir dövrünü xalqının rifahına həsr etmiş, müasir dövlətçiliyimizin ideoloji-siyasi əsaslarını qoymuş, xalqı həqiqi müstəqilliyə qovuşduraraq onun qəlbində silinməz izlər buraxmışdır. Bu da təsadüfi deyildir ki, Ulu Öndərin 100 illik yubileyi hazırda respublikamızda və onun hüdudlarından kənarda ehtiramla qeyd olunur.

Azərbaycan xalqı müstəqillik əldə etdikdən sonra qanunvericilik bazasının formalaşdırılması, hüquqi islahatların həyata keçirilməsi, demokratik dəyərlərə əsaslanan hüquq və məhkəmə sisteminin yaradılması sahəsində görkəmli dövlət xadiminin rolu əvəzedilməzdir. O, demokratiya, qanunun aliliyinin təmin edilməsi, insan hüquq və azadlıqlarının qorunması istiqamətində, siyasi, iqtisadi, əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində mütərəqqi və qətiyyətli addımlar atmışdır.

Ulu Öndər tərəfindən aparılan köklü məhkəmə-hüquq islahatları çox dəyərli konsepsiyaya söykənir, bu konsepsiya inkişaf etmiş dövlətlərin hüquqi dövlət quruculuğu təcrübəsinə, ümumbəşəri demokratik prinsiplərə, eyni zamanda Azərbaycan xalqının dövlətçilik tarixi və ənənələrinə dayanır. Bu hüquqi islahatlar azad cəmiyyətin formalaşmasına, hüquqi, demokratik dövlət quruculuğuna, qanunun aliliyinin təmin olunmasına, insan hüquq və azadlıqlarının müdafiəsinə təminat yaratmışdır.

Ümummilli Liderin hələ o dövrdən idarəçilikdə təməlini qoyduğu çox dəyərli ənənələrdən biri də məhz xalq arasına çıxmaq, sadə vətəndaşlarla canlı ünsiyyət yaratmaq idi. Bu yolla o, mövcud problemləri, eləcə də dövlət məmurlarının işə münasibətini öyrənmiş olurdu. Dahi şəxsiyyət insanlarla ünsiyyətdə olmağı, onların üzləşdiyi çətinlikləri yerində öyrənib, bununla bağlı təxirəsalınmaz tədbirlər həyata keçirirdi. Hakimiyyət məmurları və sadə xalq kütlələri arasındakı münasibətlərdə hər cür sərhədə, bürokratik əngəllərə qarşı çıxmışdır.

Böyük strateq Heydər Əliyevin yaratdığı spesifik idarəçilik modelinin üstün cəhətlərindən biri də kadr seçimində sosial ədalətsizliyin aradan qaldırılması oldu, o, daha çox yüksək mənəvi-əxlaqi keyfiyyətləri, intellekti və yüksək bilik səviyyəsi ilə fərqlənən gənclərə üstünlük verirdi. Bu ideologiya hazırda da davam etdirilir.

Ulu Öndərin yenidən hakimiyyətə qayıdışı yeni islahatların aparılmasına səbəb oldu. Bütün sahələrlə yanaşı, Hüquq-Mühafizə və Məhkəmə orqanları da yenidən quruldu. 1995-ci ildə ümumxalq səsverməsi-referendum yolu ilə ilk milli Konstitusiyası qəbul olundu. Həmin Konstitusiya ilə yeni məhkəmələr yaradıldı. Konstitusiya məhkəməsi Ali Məhkəmə, Apelyasiya məhkəmələri, Ağır cinayətlərə dair məhkəmələr, Hərbi məhkəmələr, İnzibati-İqtisad (sonradan İnzibati və Kommersiya məhkəməsi yaradılıb) məhkəməsi, şəhər və rayon məhkəmələri (həmin zamanadək xalq məhkəmələri idi) yaradıldı. Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsinin 3-cü bəndinə əsasən göstərilən məhkəmələr hakimiyyətin bir qoludur.

Dövlət quruculuğunun və məhkəmə-hüquq islahatlarının həyata keçirilməsində Ümummilli Liderimiz Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə hazırlanmış və 1995-ci ildə ümumxalq səsverməsi – referendum yolu ilə qəbul olunmuş, ilk milli Konstitusiyanın qəbulu tariximizdə mühüm tarixi hadisədir. Bununla bərabər dövlətin və cəmiyyətin ardıcıl inkişafının təmin olunmasında demokratik prinsiplər və beynəlxalq hüquq normalarının tələblərinə cavab verən yeni qanunlar da qəbul edildi. Müstəqil Azərbaycanın Konstitusiyasında ilk dəfə olaraq Məhkəmə Hakimiyyəti anlayışı verildi. Bununla da cəmiyyətdə yaranan bütün hüquq münasibətlərinin həlli məsələsi məhkəmə orqanlarının səlahiyyətinə aid edildi.

Məhkəmə hakimiyyəti, onun hüquqi dövlətdə rolu və yeri ilə bağlı əsas ideyalar Konstitusiyada bünövrə kimi qoyulmuş konseptual əsaslardan irəli gəlir. Ümummilli Lider Heydər Əliyev yaxşı bilirdi ki, müstəqil məhkəmə hakimiyyəti yaratmadan ədalətli sistem yaratmaq mümkün deyil. Buna görə ölkədə köklü islahatlara ehtiyac var idi. Bu səbəbdən məhz Heydər Əliyevin təşəbbüsü ilə 1997-ci ildə zəngin demokratik ənənələri olan ölkələrin təcrübəsinə dayanan “Məhkəmələr və hakimlər haqqında” Qanun qəbul edildi. Bu qanun sayəsində bir sıra yeniliklər, qaydalar qəbul olundu və vahid məhkəmə sistemi yarandı. Bununla da ölkəmizdə məhkəmə quruluşunun mahiyyətcə yeni modeli bərqərar edildi.

Bu qanuna əsasən respublikada hakimiyyətin üç müstəqil qolundan biri olan məhkəmələr dünyanın inkişaf etmiş dövlətlərinin mütərəqqi təcrübəsinə əsaslanan modeldə formalaşdırıldı. Bu qanuna əsasən hazırda ölkəmizdə birinci instansiya, apelyasiya və kassasiya instansiyalı üçpilləli məhkəmə sistemi fəaliyyət göstərir. Üçpilləli məhkəmə sistemi ədalət mühakiməsinin səmərəliliyinə, onun dəqiq və düzgün təmin olunmasının artırılmasına xidmət edir. Belə ki, işlərə birinci instansiya qaydasında baxılır, bundan sonra qanunla nəzərdə tutulan hallarda apelyasiya qaydasında, daha sonra isə kassasiya qaydasında yenidən baxıla bilər. Bu sistem birinci instansiya məhkəməsinin buraxdığı səhvlərin, qərəzli, subyektiv, ədalətsiz şəkildə baxılması hallarının tez bir zamanda aşkar edilib, onların yuxarı məhkəmə instansiyalarında aradan qaldırılmasına, işlərə düzgün və obyektiv baxılmasına şərait yaradır.

İnsan hüquq və azadlıqlarının təmin edilməsi məqsədilə həyata keçirilən hüquqi islahatların ən mühümü isə yaşamaq hüququnun təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər oldu. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1993-cü ildə Azərbaycanda ölüm cəzasının icrasına moratorium qoyuldu, 1998-ci il fevralın 10-da isə, ümumiyyətlə, ləğv edildi. Qeyd etmək lazımdır ki, Azərbaycan Şərqdə ilk dəfə olaraq ölüm cəzasını ləğv edən ölkə kimi tarixə düşdü. Bu tarixi addım humanizm, insanpərvərlik, ədalət, şəxsiyyətə və insan hüquqlarına hörmət kimi yüksək amallara yaşayan Ümummilli Lider Heydər Əliyevin gələcək nəsillərə misilsiz töhfəsidir. Ulu Öndər qeyd edirdi: ***“Mən, cinayət-hüquq siyasətini hərtərəfli təhlil edərək ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək ideyalara sadiq qalaraq, ölkəmizdə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəlib bu tarixi bəyanatı verişəm”.*** Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında demokratik və hüquqi dövlət quruculuğu yolunda atılan addımlar, beynəlxalq standartlara əsaslanan köklü hüquqi islahatlar insan və vətəndaş hüquq və azadlıqlarının təminatı sahəsində əsaslı dönüşə səbəb oldu. Heydər Əliyevin “Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi haqqında” 1994-cü il 9 avqust tarixli Fərmanı ilə cinayətkarlığa qarşı mübarizə tədbirləri daha da gücləndirildi, hüquq-mühafizə orqanlarının bu istiqamətdə uzunmüddətli dövr üçün fəaliyyət proqramı müəyyənləşdirildi.

Əhalinin ədalət mühakiməsinə çatımlığının təmin olunması, onların əlavə vaxt itkisindən, xərclərdən azad edilməsi, qanunçuluğun möhkəmlənməsi məqsədilə respublika üzrə mövcud olan vahid Apelyasiya Məhkəməsi ləğv olunaraq regional apelyasiya məhkəmələri yaradıldı. Bu hal məhkəməyə müraciət edən vətəndaşlar tərəfindən də müsbət qarşılanır. Məlumdur ki, cəmiyyətdə hakimin ədalətli qərarının insanların mənəvi dünyasına, dövlətçiliyə inamının formalaşmasına böyük təsiri vardır. Dahi rəhbərimizin müdrik kəlamında deyildiyi kimi, ***“Dövlət iki şeydən sarsıla bilər: günahkar cəzasız qalanda və günahsıza cəza veriləndə”.*** Ona görə də məhkəmə yaradıldığı gündən öz ərazi yurisdiksiyası daxilində verilən apelyasiya şikayətlərinə baxılarkən qanunun tələblərinə üstünlük verərək ədalət mühakiməsini obyektiv və ədalətli şəkildə həyata keçirməklə vətəndaşların hüquq və azadlıqlarının yüksək səviyyədə təmin olunmasına xidmət göstərir.

Heydər Əliyevin “Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi haqqında” 1994-cü il 9 avqust tarixli Fərmanı ilə cinayətkarlığa qarşı mübarizə tədbirləri daha da gücləndirilmiş, hüquq-mühafizə orqanlarının bu istiqamətdə uzunmüddətli dövr üçün fəaliyyət proqramı müəyyənləşdirilmişdir.

Ölkəmizdə hüquqi islahatların həyata keçirilməsinin təmin edilməsi məqsədilə 1996-cı ildə Hüquqi İslahat Komissiyası yaradıldı. Həyata keçirilən islahatlar qanunların və digər normativ-hüquqi aktların hazırlanması, hüquqi informasiya sisteminin genişləndirilməsi, məhkəmə və bütövlükdə, hüquq-mühafizə sisteminin islahatı, qanunların əhali arasında təbliği və öyrənilməsi kimi mühüm tədbirləri özündə ehtiva edir. “Məhkəmələr və hakimlər haqqında”, “Konstitusiya Məhkəməsi haqqında”, “Prokurorluq haqqında”, “Polis haqqında” qanunlar və digər qanunların qəbul edilməsi ölkəmizdə məhkəmə-hüquq islahatları sahəsində atılan ilk, lakin çox vacib addım olmaqla müstəqil məhkəmə sisteminin yaradılmasına və fəaliyyət göstərməsinə imkan yaradıb.

Hüquqi islahatların həyata keçirilməsi məqsədilə Prezidentin 1996-cı il 21 fevral tarixli Sərəncamı ilə hüquqi islahatlar komissiyası, 1 dekabr 1998-ci il tarixli Fərmanla isə hüquqi dövlət quruculuğunda məhkəmə hakimiyyətinin rolu nəzərə alınmaqla dövlət başçısı yanında Məhkəmə-Hüquq Şurası yaradıldı.

Həyata keçirilən çoxşaxəli islahatların məntiqi nəticəsi kimi Azərbaycan Respublikası 2001-ci ildə Avropa Şurasına tam hüquqlu üzv qəbul edildi və bu tarixi hadisə respublikamızın beynəlxalq aləmdə demokratik, hüquqi, dünyəvi dövlət kimi tanınmasına səbəb oldu və onun inkişafında yeni mərhələnin başlanğıcını qoydu.

Konstitusiyada bəyan edilmiş məhkəmə hakimiyyətinin müstəqilliyi qəbul edilmiş qanunlarda daha da inkişaf etdirilərək öz real təminatını tapmış və məhkəmə hakimiyyətinin müstəqilliyinə hüquqi zəmin yaradır. Bu sahədə qəbul olunmuş qanunlar isə yeni məhkəmə sistemini, onun təşkilati əsaslarını müəyyən edərək məhkəmə və hakimlərin müstəqilliyinin təmin edilməsinə, hər kəsin hüquq və azadlıqlarının müdafiəsinə təminatın verilməsinə, məhkəmələrin fəaliyyətinin və hakimlərin statusunun beynəlxalq standartlara uyğunlaşdırılmasına yönəlib. Həyata keçirilən islahatlar nəticəsində prokurorun məhkəmədə tərəf kimi iştirak etməsi, ittiham tərəfi ilə müdafiə tərəfi arasındakı tarazlığın bərpa edilməsi və onların məhkəmə prosesində bərabər hüquqlara malik olması, məhkəmə icraatının çəkişmə prinsipi əsasında həyata keçirilməsi, məhkəmə icraatında qeyri-prosessual münasibətlərə yol verilməməsi və bu kimi yeni müddəalar məhkəmə-hüquq sistemində tətbiq edilməyə başlandı.

Ölkəmizdə hüquq sisteminin və ədalət mühakiməsinin səmərəliliyinin artırılması məqsədilə qanunvericilik sahəsində islahatlar daha da genişləndirilməkdədir. Demokratik və hüquqi dövlət quruculuğu prosesi hazırda Ulu Öndər Heydər Əliyev siyasi kursunun davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə başçımızın qətiyyətli siyasi səriştə və iradəsi, Heydər Əliyev siyasi kursunu uğurla davam etdirməsi, onun Azərbaycan inkişafı naminə məqsədlərini böyük məharətlə həyata keçirməsi hər birimizin qəlbini qürur hissi ilə doldurur.

Hazırda ölkə rəhbərinin ideyası və təşəbbüsü ilə 2004-cü ildən başlayaraq məhkəmə sistemi daha da müasirləşdirilərək Avropa standartlarına uyğunlaşdırılır. Buna görə də qanunvericilik sahəsində islahatlar keçirilərək onun təkmilləşdirilməsi işləri görülür. Bu baxımdan ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə tədbirlər çərçivəsində Avropa Şurası ilə səmərəli əməkdaşlıq şəraitində hazırlanaraq qəbul edilmiş “Məhkəmə-Hüquq Şurası haqqında” Qanun xüsusi əhəmiyyət kəsb edir. Beynəlxalq norma və prinsiplərə uyğun olan həmin qanuna əsasən məhkəmə hakimiyyətinin özünüidarə orqanı olan Məhkəmə-Hüquq Şurası yaradılmışdır. Yeni qanunvericiliklə hakimlərin immunitetinə və səlahiyyət müddətlərinə yenidən baxılmışdır, belə ki, hakim vəzifəsinə müddətsiz təyinat müəyyən olunmuşdur. Hakimlərin intizam məsuliyyəti məsələləri Məhkəmə-Hüquq Şurasının səlahiyyətinə aid edilmişdir. Hakim vəzifələrinə namizədlərin seçilməsi üçün yeni qurum – Hakimlərin Seçki Komitəsi yaradılmışdır.

Məhkəmə-hüquq islahatlarının məntiqi davamı kimi Prezident cənab İlham Əliyevin 2006-cı il 19 yanvar tarixli “Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Fərmanı isə respublikamızın məhkəmə sisteminin əsaslı şəkildə təkmilləşdirilməsi və müasirləşməsi sahəsində ən mühüm addımlardan biri kimi dəyərləndirilə bilər. Bu fərman reallıqdan doğan zərurət olmaqla məhkəmə islahatlarının keyfiyyətcə yeni mərhələyə qədəm qoymasını təmin etdi. Bu fərman hakimlərin peşə səviyyəsinin artırılması, hakim vəzifələrinə namizədlərin müasir tələblərə cavab verən hazırlığının təmin edilməsi üçün tədbirlər görməsi, ədalət mühakiməsinin həyata keçirilməsinin yüksək mənəvi və mədəni meyarlarının müəyyən edilməsi məqsədilə Hakimlərin Etik Davranış Kodeksinin hazırlanması və təsdiq edilməsi, hakimlərin fəaliyyətində sui-istifadə, korrupsiya halları və digər qanun pozuntuları ilə bağlı müraciətlərin təxirəsalınmadan araşdırılması və müvafiq əsaslar olduğu halda hakimlərin intizam məsuliyyətinə cəlb edilməsi üçün ciddi tədbirlər görməsi barədə müvafiq göstərişlər də nəzərdə tuturdu.

Məhkəmə sisteminin müasirləşdirilməsi, vətəndaşların məhkəmələrə müraciətlərinin sadələşdirilməsi, elektron xidmətlərin təşkili məqsədilə bütün məhkəmələri əhatə edən “Elektron məhkəmə” informasiya sistemi yaradılmışdır. Bununla bağlı Prezident cənab İlham Əliyev 2014-cü il fevralın 13-də müvafiq Sərəncam imzalamışdır. İnformasiya sisteminin tətbiqi insan və vətəndaşların hüquq və azadlıqlarının səmərəli müdafiəsinə, ədalət mühakiməsinin həyata keçirilməsinin şəffaflığının artırılmasına, məhkəməyə müraciət imkanlarının genişlənməsinə, süründürməçilik və sui-istifadə hallarının qarşısının alınmasına, məhkəmə qərarlarının icrasına nəzarətin effektivliyinin artırılmasına, elektron kargüzarlığın və elektron sənəd dövriyyəsinin təmin olunmasına xidmət edir.

Bu gün ömrünü bütünlüklə xalqının rifahına və dövlətinin gələcək inkişafına həsr etmiş dahi şəxsiyyət Heydər Əliyevin yaratdığı müasir Azərbaycan dövləti möhkəm təməllər üzərində dinamik tərəqqi yolu keçir, qüdrətlənir və inkişaf edir.

Məhkəmə-hüquq sistemində inkişafın yüksək səviyyədə həyata keçirilməsi məqsədilə hər bir hakim öz üzərinə düşən məsuliyyəti dərk edərək qəbul etdiyi qərarlarda ədalət, qanunçuluq və qərəzsizlik prinsipinin tələblərinə dönmədən əməl etməlidir.

Keçirilən islahatlar nəticəsində Azərbaycanda məhkəmə sisteminin fəaliyyəti daha da müasirləşəcək, ədalət mühakiməsi daha çevik həyata keçiriləcək, əhaliyə yüksək səviyyədə hüquqi yardım göstəriləcəkdir.

**Polad HƏSƏNOV**

*Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsinin sədri*



# Heydər Əliyev İli

# Müasir Azərbaycan Ulu Öndər Heydər Əliyevin şah əsəridir

*Müasir Azərbaycan dövlətinin banisi Ümummilli Lider Heydər Əliyev çoxəsrlik tariximizin ən parlaq səhifələrinə silinməz imzasını atmış görkəmli dövlət xadimi, Azərbaycan xalqı və dövlətçiliyi qarşısında misilsiz xidmətləri olmuş dahi şəxsiyyətdir. Fəaliyyətinin hər dönəmini bütün çətinlikləri gözə alaraq bir amal uğrunda, xalqımızın parlaq gələcəyinə, qüdrətli bir dövlət kimi Azərbaycanın milli müstəqilliyinin əbədiliyinin təmin edilməsinin təşkilinə yönəltmiş, milli dövlətçilik ideyalarının gerçəkləşməsində misilsiz xidmətlər göstərmişdir.*



“Böyük quruculuğun memarı”, rəssamı Cavid İsmayılov

Doğma xalqının böyük təəssübkeşi, dahi siyasi xadim Heydər Əliyev ilk dəfə 1969-1982-ci illər Azərbaycanda siyasi hakimiyyətdə olduğu dövrlərdə Vətənimizin tarixi müqəddəratını dəyişdi. Ölkəmiz azadlıq və müstəqillik yolunda ilk və ən böyük addımları da məhz bu tarixi dövrdən atmağa başladı. Rəhbərliyinin birinci dövründən başlayaraq dahi şəxsiyyət Azərbaycan dilinin əhəmiyyətinin artırılması, dövlət müəssisələrində azərbaycanlıların yüksək vəzifələrə təyin olunması kimi bir çox düşünülmüş addımlar atmağa müvəffəq oldu. Bu dövrdə yeni bir inkişaf mərhələsinə qədəm qoyan Azərbaycan Ulu Öndərin sayəsində ən qabaqcıl texnologiyaların istehsalına, milli kadrların hazırlanmasına, xalq təsərrüfatının dinamik inkişafına, elm, təhsil və mədəniyyətin inkişaf etdirilməsinə nail oldu. Ümummilli Liderimizin gerçəkləşdirdiyi bu siyasətin təməlində Azərbaycanın gələcəyi, milli dövlətçilik düşüncəsi, Azərbaycançılıq ideologiyası illər ötdükdən, Azərbaycan öz müstəqilliyini elan etdikdən sonra daha aydın anlaşılacaqdı. Ulu Öndərin hələ respublikamıza rəhbərliyinin birinci dövründə milli şüurun oyanışı istiqamətində gördüyü işlər olmasaydı, bu gün Azərbaycanın müstəqil, suveren dövlət kimi mövcudluğundan söz açmaq çətin olardı.

Ümummilli Liderimiz deyirdi: ***“Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və Azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıdır”.***

Ötən əsrin 70-ci illərində Ümummilli Lider Heydər Əliyev tərəfindən Azərbaycan cəmiyyətinin milli özünüdərkə dönüşünün, xalqımızın tarixi yaddaşının özünə qaytarılmasının, milli ruhun oyanış mərhələsinin, bir sözlə, Azərbaycan dövlətçiliyinin ideoloji əsası qoyulmuşdur.

Azərbaycanın gələcək inkişafı üçün güclü kadr potensialının formalaşmasına xidmət etmiş addımlardan biri də azərbaycanlı gənclərin Moskvanın, eləcə də SSRİ-nin digər şəhərlərinin aparıcı elm və təhsil ocaqlarına göndərilməsi idi. Azərbaycan müstəqillik əldə etdikdən sonra həmin təhsilli kadrlar ölkəmizin mənafeyi naminə quruculuq və inkişaf proseslərində xüsusi fəallıq göstərmiş, səy və bacarıqlarını əsirgəməmişlər.

Dahi şəxsiyyət Heydər Əliyevin yüksək peşəkarlığa malik olan hərbi kadrların hazırlanması istiqamətində atdığı addımlar həmin dövr üçün böyük cəsarət və uzaqgörənlik tələb edirdi. O, böyük qətiyyət göstərərək 1971-ci ildə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Liseyin açılmasına nail olmuşdur. Bununla yanaşı, Ulu Öndərimiz gənclərin ittifaq miqyasında tanınmış ali hərbi məktəblərə cəlb olunması işinə xüsusi diqqət yetirmişdir. Ümummilli Lider 1997-ci ildə keçmiş SSRİ-nin müxtəlif universitetlərində ali təhsil almış məzunlarla görüşündə demişdir: ***“Azərbaycanda kadr hazırlığı məsələsi ilə şəxsən bilavasitə ciddi məşğul olarkən və o cümlədən sizləri respublikamızdan kənarda ali məktəblərdə görərkən mütləq və mütləq Azərbaycanın gələcəyini, müstəqilliyini düşünürdüm. O vaxt mən inanırdım: vaxt gələcək ki, bu kadrlar müstəqil Azərbaycana lazım olacaqdır. Vaxt gələcəkdir ki, nəhayət, Azərbaycan müstəqil olacaqdır və bu kadrlar Azərbaycanın müstəqilliyini təmin edəcəklər”.***

Dahi rəhbərin yüksək idarəçilik gücü, islahatları uğurla reallaşdırmaq məharəti nəticəsində ötən əsrin 70-80-ci illərində respublikanın potensialı əsaslı şəkildə artmış, sosial-iqtisadi tərəqqi baş vermiş, Azərbaycan keçmiş ittifaq miqyasında ilk yerlərə yüksəlmişdir. İttifaq rəhbərliyinə qədər yüksəlmiş Ümummilli Lider Heydər Əliyevin şəxsiyyəti, böyük səriştəsi, bacarıqlı idarəçilik və təşkilatçılıq qabiliyyəti, qısa müddətdə əldə etdiyi böyük nailiyyətlər hər kəsin böyük heyranlıqla diqqətini çəkmişdir. Doğma Vətənini canı qədər sevən bu dahi insan harada olmasından, harada çalışmasından asılı olmayaraq, ölkəsinin adını daim uca tutmuşdur. 1987-ci il 21 oktyabrda isə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun yürütdüyü anti-Azərbaycan siyasətinə etiraz əlaməti olaraq tutduğu vəzifəsindən istefa vermişdir. Bununla da Heydər Əliyev amilinin qarşısına sədd çəkmək məqsədilə məkrli təxribat planları həyata keçirilmiş, xalqımız üçün problemlər, çətinliklər başlamışdır. Bütün bunlara baxmayaraq, dahi şəxsiyyət geri çəkilməmiş, xalqın ağır günlərində mübarizə meydanına atılaraq doğma xalqının yanında olmuşdur. 20 Yanvar faciəsi zamanı sovet rəhbərliyinə qarşı ilk və ən kəskin etiraz səsini ucaldan məhz Vətənin mübariz oğlu Heydər Əliyev oldu. Bu etiraz, bütövlükdə, o ağır günlərdə faciə ətrafında xəyanət sükutunu yaran bir xalqın haqq səsi idi. Çünki dahi şəxsiyyət bilirdi ki, sovet ideoloji maşınının bu məkrli planının arxasında Azərbaycan xalqının azadlıq əzmini qırmaq, milli mənliyini alçaltmaq siyasəti dayanırdı.

Xalqın sevgisini qazanmış dahi liderin varlığı, ovaxtkı başabəla respublika rəhbərliyini də narahat edirdi. Elə bu səbəbdən idi ki, 1990-cı il iyulun 20-də Bakıya dönən xalqımızın böyük oğlu Heydər Əliyevin orada yaşamasına imkan verilmədi. Ona görə də iyulun 22-də Ulu Öndər doğulub boya-başa çatdığı Naxçıvana üz tutmuş, bu qayıdış Onun tale hökmünün, xilaskarlıq missiyasının növbəti mərhələsinin başlanğıcına çevrilmişdir. Naxçıvana qarşı işğalçılıq planlarını al-üst edərək muxtar respublikanı qorumağa müvəffəq olmuş Ümummilli Lider Heydər Əliyev, həmin dövr ağır günlər keçirən Naxçıvanı erməni separatçıların və onların havadarlarının caynağından xilas etmişdir.

Ulu Öndərimiz Naxçıvanda olduğu müddətdə dövlət quruculuğu, hakimiyyət və idarəetmənin təkmilləşdirilməsi sahəsində mühüm işlər görmüşdür. Elə həmin dövrdə siyasi böhran aradan qaldırılmış, iqtisadi islahatlar həyata keçirilmişdir. Dahi şəxsiyyət Heydər Əliyevin yüksək səyləri nəticəsində muxtar diyarın hərbi quruculuq məsələləri xüsusi diqqətdə saxlanılaraq keçmiş sovet ordusunun bu ərazidəki bütün silah və texnikası alınıb Milli Ordu hissələrinə verilmişdir. Dövlətimiz üçün ən ali məqamlardan biri olan, Naxçıvan Ali Sovetinin sessiyasında məhz dahi şəxsiyyətin təşəbbüsü və sədrliyi ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı elan edilmiş, eyni qərarın Azərbaycan Ali Soveti tərəfindən də qəbul olunması üçün vəsatət qaldırılmışdır.

Ulu Öndərin ən böyük arzularından biri dünya azərbaycanlılarının həmrəyliyi idi. Sanki məqamı çatmış həmin dövr idi ki, Ümummilli Lider Heydər Əliyev dünya azərbaycanlılarını bir-birinə daha da yaxınlaşdırmaq, onların birliyini və həmrəyliyini təmin etmək üçün 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi təsis olunması haqqında Qərar qəbul etmişdir. Bu cür önəmli siyasi gedişatlardan sonra dahi Öndərin sədrliyi ilə 1992-ci il noyabr ayının 21-də Yeni Azərbaycan Partiyasının yaradılması Azərbaycan siyasi sisteminə yeni nəfəs, yeni demokratik ənənələr bəxş etmişdir.

Vətənin ağır günlərində müqəddəs xilaskarlıq missiyasını öz çiyinləri üzərinə götürmüş dahi Heydər Əliyev yorulmaz fəaliyyəti ilə hər zaman xalqla birgə ölkənin müqəddəratı üçün çalışmış, siyasət meydanında böyük hədəflərə nail olmuşdur.

Tarixboyu bütün xalqların hüquq və mənəvi tələbatları arasında əsas nemət milli müstəqillik və onun qorunub saxlanılmasıdır. Çünki tarixdən də məlumdur ki, milli müstəqilliyini əldən vermiş millətlər zaman-zaman başqa xalqların və millətlərin içərisində assimilyasiyaya uğrayaraq məhv olmaq təhlükəsi yaşamağa məruz qalırlar.

Təəssüf ki, Azərbaycan xalqı da 70 il müddətində sovet ideologiyasının əsarətinə alınmış və bu məkrli ideologiyanın qurbanına çevrilmişdir. Ötən əsrin sonları, sovetlər ittifaqının süqutundan sonra Azərbaycan xalqının əlindən alındığı müstəqilliyinə yenidən qovuşması, sovet ideologiyasının əsarətindən qurtulması Ulu Öndər Heydər Əliyevin əyilməz iradəsi sayəsində baş tutmuşdur. Azərbaycan yenidən müstəqilliyinə qovuşmasına baxmayaraq, 1993-cü ildə onu itirmə təhlükəsi ilə üz-üzə qalmış, ölkədə hakimiyyət böhranı, xaos və anarxiya respublikanı bürümüşdü. Təəssüf ki, vətəndaş müharibəsi dərəcəsinə yüksəlmiş qarşıdurmalar nəinki dövlət müstəqilliyimizi, hətta milli varlığımızı belə hədəfə alırdı. Xalq qarşısında gündən-günə nüfuzunu itirən ozamankı iqtidar, baş vermiş hərc-mərclikdən, gedən proseslərdən düzgün nəticə çıxara bilməmişdir. 1993-cü il iyun ayının 4-də Gəncə şəhərində baş vermiş hadisələr bu sonluğun kulminasiya nöqtəsi idi. Azərbaycan xalqı belə bir təlatümlü vəziyyətdə özünə çıxış yolu axtarır və bu işığı Heydər Əliyev fenomenində görürdü. Görkəmli dövlət xadiminin xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışı artıq tarixi zərurət idi. O bütün mənalı ömrünü xalqının azadlığı, firavanlığı yolunda qurban vermiş, ağır və məsuliyyətli işin öhdəsindən layiqincə gələrək xalqının Ona bəslədiyi etimadı doğrultmuşdur. Hər dəfə olduğu kimi, bu dəfə də xilaskarlıq missiyasının öhdəsindən layiqincə gələn Ulu Öndər 15 iyun tarixinin təqvimdə “Qurtuluş Günü” kimi həkk olunmasına vəsilə olmuşdur. Beləliklə, 1993-cü ilin 15 iyun tarixi Azərbaycan tarixində ən mühüm səhifələrdən birinə çevrilmişdir. Ulu Öndərin parlamentə rəhbərlik etməsindən sonra ali qanunverici orqanın fəaliyyətində böyük dönüş baş vermişdir. Görkəmli dövlət xadimi Azərbaycan parlamentinə rəhbərliyə başladığı dövrdən etibarən ictimai sabitliyin bərpası, siyasi sistemdə əsaslı dəyişikliklər və inkişaf, Azərbaycanın beynəlxalq təcridinin aradan qaldırılması istiqamətində yorulmaz fəaliyyət göstərmişdir. Bunlarla yanaşı, elm, təhsil, mədəniyyət, gənc nəslin fəallığının artırılması istiqamətində böyük işlər görülmüş, mühüm nailiyyətlərə imza atılmışdır. Xalqın böyük sevgisi və etimadını qazanmış Heydər Əliyev 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi yolu ilə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

Ulu Öndər ölkəmiz üçün hər bir inkişafın təməlində sabitliyin sarsılmaz əsaslarını yaratmışdır. Azərbaycan xalqının güvən yerinə çevrilmiş dahi şəxsiyyət hər zaman xalqın dəstəyinə arxalanaraq taleyüklü məsələlərin öhdəsindən böyük məharətlə gəlmişdir. 1994-cü il oktyabr və 1995-ci il mart aylarına ölkədə daxili və xarici qüvvələr tərəfindən hazırlanmış dövlət çevrilişi planlarının, terror hadisələrinin qarşısı alınaraq silahlı yolla hakimiyyəti ələ keçirmək iddialarına son qoyulmuşdur. Dövlətçiliyimizə kölgə salmaq istəyən ünsürlərin bütün cəhdlərinin qarşısı qətiyyətlə alınmışdır.

Ümummilli Lider həm də dünya dövlətləri arasında iqtisadi sistemə keçidin müəllifidir. Onun gələcək nəsillər qarşısında tarixi xidmətlərindən biri də 1994-cü ilin sentyabrında imzasını atdığı “Əsrin müqaviləsi”dir. Bu tarixi nailiyyətin əldə olunması ilə “Yeni neft strategiyası”nın uğurla həyata keçirilməsinə başlanıldı. Ölkəmizdə iqtisadiyyatın müxtəlif sahələrinə xarici sərmayelərin cəlb olunmasına, böyük imkanlar yaranmışdır. Ümummilli Lider dəmir iradəsi ilə Azərbaycanın beynəlxalq mövqeyini və nüfuzunu dünya dövlətləri arasında gücləndirmişdir. Bundan əlavə, ölkəmizdə insan hüquq və azadlıqlarının müdafiəsinin gücləndirilməsi, demokratik inkişafın sürətləndirilməsi istiqamətində köklü islahatların aparılması naminə 1995-ci il noyabr ayında demokratik dəyərləri özündə əks etdirən müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul edilmişdir ki, bu da milli dövlət quruculuğu istiqamətində tarixi nailiyyət olmuşdur. Dövlətçilik baxımından qısa müddət hesab olunan bu dövrdə Ümummilli Liderin xalqımıza və dövlətçiliyimizə qazandırdığı, bəxş etdiyi müvəffəqiyyətlər yalnız müstəqilliyini yenicə əldə etmiş Azərbaycanın mövcudluğunu qorumaq, onun sütunlarını möhkəm təməllər üzərində bərkidib, inkişaf etdirmək idi.

Azərbaycan bu gün Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi uğurlu yolla gələcəyə doğru inkişaf edir. Prezident cənab İlham Əliyev 2003-cü ildə ali kürsüdə fəaliyyətə başlayarkən ***“Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyevin siyasəti uğurla davam etdirilməlidir”***, – demişdir. Ölkəyə rəhbərliyinin ilk günündən başlayaraq cənab İlham Əliyev ötən dövr ərzində əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş milli birlik ənənəsini uğurla davam etdirmişdir. Vətəndaş həmrəyliyi və ictimai-siyasi sabitlik qorunaraq Azərbaycan dünyanın ən sabit və təhlükəsiz ölkələrindən birinə çevrilmişdir.

Bu gün fəxrlə deyə bilərik ki, Ulu Öndərin ümidlərini yüksək səviyyədə doğruldan Prezident cənab İlham Əliyev yorulmadan uca zirvələr fəth edir. Müzəffər Ali Baş Komandanın rəhbərliyi və Ordumuzun 2020-ci ildə 44 günlük Vətən müharibəsində qazandığı Zəfər dövlətçilik tariximizdə ən şanlı qələbələrdən birinə çevrilmişdir. Bu Tarixi Zəfərin elan edildiyi gün – 8 noyabr 2020-ci ildə xalqa müraciətində Ali Baş Komandan əzəli torpağımız olan Şuşanın işğaldan azad olunması müjdəsini verərkən demişdir: ***“Mən, eyni zamanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, Onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün!”***

*Bəli, bu gün Azərbaycan özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Dünya ölkələri sırasında nüfuzunu ildən-ilə yüksəldən Azərbaycan artıq Şərqlə Qərb arasında mühüm strateji oyunçuya çevrilib. Dövlət başçısının böyük uzaqgörənliklə həyata keçirdiyi layihələr Azərbaycanın gələcək inkişafının təmin olunmasına imkan verib. Bu tarixi nailiyyətlərimizin təməli isə Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub.*

✍ Aidə İBRAHİMOVA

***Məqalə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə keçirilən “Dahilik zirvəsi” esse müsabiqəsinə təqdim edilir.***

*Bir xalqın, bir dövlətin varlığını təsdiq edən amillərdən biri də ordudur. Bu ordunun əsasını xalqın yetişdirdiyi igid, qeyrətli, vətənpərvər övladlar təşkil edir. O övladlar ki Vətən, torpaq yolunda canlarından keçməyə hər an hazırdırlar. Xalqımız həmişə belə vətənpərvər övladları ilə fəxr edib və edəcəkdir. Ümummilli Liderimiz Heydər Əliyev demişdir:* ***“Ordu ölkəmizin, millətimizin, dövlətimizin, müstəqilliyimizin dayağıdır... Xalqla ordunun birliyi həm xalqın qüdrətini artırır, həm də ordunu daha qüvvətli edir”.*** *Bu birliyi tarixboyu torpaqlarımızı yadellilərdən qoruyan qeyrətli igid oğul və qızlarımızın şücaətində görmüşdük. Lakin 44 günlük şanlı Vətən müharibəsində bu birlik “Dəmir yumruq” olub düşmənin başını əzdi, illərlə həsrətini çəkdiyimiz torpaqlarımız qüdrətli ordumuzun gücü, cəsarəti hesabına düşmən tapdağından azad edildi. Qürurla xatırladığımız o günlərə keçməzdən əvvəl gəlin ordumuzun formalaşma, inkişaf tarixinə qısaca nəzər salaq.*

# Ümummilli Liderimizin miras qoyduğu qüdrətli Azərbaycan Ordusu son illərdə böyük uğurlar əldə edib




### *Milli Ordu quruculuğuna Naxçıvandan başlanılıb*

Ümummilli Liderimiz Heydər Əliyevin 1990-1993-cü illərdə muxtar respublikaya rəhbərliyi dövründə bir çox sahələr, eləcə də hərbi sahədə böyük işlər görüldü. İşğal təhlükəsi ilə üz-üzə qalan Naxçıvanda ordu quruculuğu sahəsində qəbul edilən qərarlar nəticəsində muxtar respublikanın etibarlı müdafiəsi təmin edildi, müstəqil Azərbaycanın ilk ordu hissələrinin yaradılmasına başlanıldı. Belə ki, dahi lider 1992-ci ilin sentyabrın 15-də Naxçıvan Muxtar Respublikası ərazisində ilk milli ordu qurumu olan 705 saylı əlahiddə gücləndirilmiş motoatıcı briqadanı yaratdı və həmin il oktyabrın 9-da Naxçıvanda keçirilən ilk hərbi paradda çıxış edərək dedi: ***“Biz 70 il ərzində hər il keçmiş sovetlər ittifaqının silahlı qüvvələrinin bayramlarının iştirakçısı olmuşuq. Fəqət bugünkü bayram bizim hər birimizin qəlbində böyük iftixar hissi doğurur. Biz böyük sevinc içərisindəyik. Çünki Azərbaycan xalqı, nəhayət, öz dövlətini, öz millətini, öz doğma torpaqlarını müdafiə etmək üçün Milli Ordusunu yaradıb”.***

### *Yüksəkixtisaslı hərbi kadrlar yetişdirildi*

Ulu Öndərin təşəbbüsü ilə1971-ci il iyulun 28-də Cəmşid Naxçıvanski adına İxtisaslaşdırılmış Hərbi Məktəbin yaradılması bu sahədə intibahın başlanğıcı oldu. Cəmşid Naxçıvanski adına Hərbi Məktəbdə yetişən yüksəkixtisaslı hərbi kadrlar müstəqil Azərbaycan Ordusunda xidmət edən zabit heyətinin böyük əksəriyyətini təşkil etdi. Ulu Öndər Heydər Əliyev 2002-ci il iyunun 17-də Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialında kursantlarla görüşü zamanı dedi: ***“Biz bu işi başlayanda o bizim üçün nəzəriyyə deyildi, böyük gələcəyə baxış idi. Azərbaycanın gələcəyinə baxış idi. Azərbaycanda milli zabit kadrlarının hazırlanması üçün ilk addımlar idi. Biz bu addımları atarkən düşünürdük ki, zaman gələcək Azərbaycan xalqı öz milli azadlığını əldə edəcək, dövlət müstəqilliyini əldə edəcək, müstəqil Azərbaycan dövləti yaranacaqdır”.*** Bəli, uzaqgörən şəxsiyyətin dediyi kimi də oldu. Bu gün müstəqil Azərbaycan dövləti güclü, yenilməz Milli Orduya sahibdir.

Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu tədbirləri müstəqil Azərbaycanın Prezidenti, Ulu Öndərimizin layiqli davamçısı Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildi. Ölkə başçısının 2004-cü il 27 fevral tarixli Sərəncamı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı ləğv edilərək onun əsasında Heydər Əliyev adına Hərbi Lisey yaradılıb. Heydər Əliyev adına Hərbi Lisey mötəbər hərbi təhsil müəssisəsi kimi gələcəyin zabitlərini yetişdirir və bu liseyin məzunları Azərbaycan Silahlı Qüvvələrinin müxtəlif bölmələrində ləyaqətlə xidmət edirlər. Ordu quruculuğu sahəsində atılan mühüm addımlardan biri də ölkə başçısının 2013-cü il 18 dekabr tarixli Fərmanına əsasən 5-ci Ordu Korpusunun bazasında Əlahiddə Ümumqoşun Ordunun yaradılması oldu. Bu ordu müasir silah, döyüş texnikası, aviasiya, hava hücumundan müdafiə qurğuları ilə təchiz edildi. Göstərilən yüksək dövlət qayğısı hesabına Əlahiddə Ümumqoşun Ordunun peşəkar zabitləri 2018-ci ilin may ayında Şərur rayonunun 26 ildən artıq erməni hərbi birləşmələrinin nəzarətində olan Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyəti olan yüksəklikləri düşmən tapdağından azad etdilər.

Dövlət qayğısı ilə ölkəmizdə və onun ayrılmaz hissəsi olan muxtar respublikamızda hərbi hissələrin maddi-texniki təminatı möhkəmləndirilib, əsgəri-məişət-yaşayış kompleksləri tikilib, zabit ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılıb, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığı əhəmiyyətli dərəcədə artırılıb. Ötən il ölkə başçısının 5 mart tarixli Fərmanı ilə Müdafiə Nazirliyinin tabeliyində Milli Müdafiə Universiteti, Hərbi Elmi-Tədqiqat İnstitutu və Hərbi İdarəetmə İnstitutunun yaradılması hərbi mütəxəssislərin, təcrübəli hərbi kadrların və gənc zabitlərin hazırlanmasında mühüm rol oynayacaq, Azərbaycan Ordusunun daha da güclənməsinə mühüm təkan olacaq.

### *Ulu Öndərin yaratdığı Azərbaycan Ordusu xalqımıza böyük Zəfəri bəxş etdi*

Hələ 1994-cü il yanvarın 24-də Ümummilli Lider Heydər Əliyev cəbhəyə yola düşən yeni hərbi hissənin şəxsi heyətinə xeyir-dua verərkən demişdi: ***“Bilin ki, sizin hər birinizin arxasında böyük Azərbaycan ölkəsi durmuşdur. Bilin ki, hər biriniz öz doğma Vətəninizi, öz ananızı, atanızı, bacınızı, qardaşınızı müdafiə etmək üçün ordu sıralarına gəlmisiniz. Bilin ki, sizin hər bir uğurlu addımınız Azərbaycan Respublikasının müstəqilliyinə və ərazi bütövlüyünə kömək edəcəkdir. Bilin ki, ümumi qələbəmiz sizin hər birinizin fəaliyyətindən, qəhrəmanlığından asılıdır”.*** Ötən illər ərzində Azərbaycan Ordusu qəhrəmanlığını və gücünü dəfələrlə bütün dünyaya nümayiş etdirdi. 2016-cı il Aprel döyüşləri, 2018-ci ilin may ayındakı Günnüt qələbəsi ordumuzun yenilməzliyini bir daha göstərdi. Lakin bütün bunlar düşmənə dərs olmadı. 2020-ci il sentyabrın 27-si Ermənistan Silahlı Qüvvələrinin sərhəddə təxribat törətməsi, mülki əhalinin yaşadığı şəhər və kəndləri atəşə tutması Silahlı Qüvvələrimizin əks-hücum əməliyyatı ilə nəticələndi. Beləliklə, tarixə qızıl hərflərlə yazılan 44 günlük şanlı Vətən müharibəsi xalqımıza böyük Zəfəri bəxş etdi. Dövlət başçısının ***“Qarabağ Azərbaycandır və***



***nida işarəsi”*** bəyanatı bütün azərbaycanlıların birlik, Qələbə nidasına çevrildi. Torpaqlarımız Prezidentimizin düşünülmüş siyasəti, ordumuzun rəşadəti, fədakarlığı, canı-qanı bahasına işğaldan azad edildi. Zəfərimizin möhürü isə noyabrın 8-də Şuşanın işğaldan azad edilməsi ilə vuruldu. Tarixi faktlara nəzər salsaq, görərik ki, 1992-ci il mayın 8-də Şuşanın itirilməsi hakimiyyət uğrunda mübarizə aparan AXC-Müsavat cütlüyünün yarıtmaz fəaliyyəti ölkəni idarəolunmaz vəziyyətə, xaosa düçar etməsi, vətəndaşları tamamilə müdafiəsiz buraxmaları ucbatından baş verməş, Şuşa faktiki olaraq ermənilərə bağışlanmışdı. O vaxt Azərbaycan müdafiə naziri AXC-Müsavat cütlüyünün törəmələrindən olan Rəhim Qazıyev demişdi ki, Şuşa əldən getsə, başıma güllə çaxacağam. Lakin nəinki başına güllə çaxmış, əksinə, Şuşanı satan birinci o olmuşdu. Şuşa ***“Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik! İnanın ki, gedəcəyik! Şuşa Azərbaycanın gözüdür. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir”,*** – deyən Ümummilli Lider Heydər Əliyevin qurduğu və Ali Baş Komandan cənab İlham Əliyevin daha da inkişaf etdirdiyi qüdrətli ordumuzun qəhrəmanlığı, şücaəti hesabına 44 günlük müharibədə əldə edilən möhtəşəm Zəfərin simvoluna çevrildi. Şuşanın Baş planının hazırlanması, qısa müddətdə aparılan bərpa-quruculuq işləri onun Türk dünyasının mədəniyyət paytaxtı kimi nüfuzunu artırıb. Bu gün üçrəngli bayrağımızın qürurla dalğalandığı Şuşa beynəlxalq, mötəbər tədbirlərə, “Xarıbülbül” Beynəlxalq Musiqi Festivalı kimi mədəni tədbirlərə ev sahibliyi edir.

Qeyd etmək yerinə düşər ki, şanlı Vətən müharibəsində Naxçıvan hərbçiləri böyük rəşadət göstərdilər. Ali Baş Komandan cənab İlham Əliyev naxçıvanlıların cəsarətini belə qiymətləndirmişdir: ***“İkinci Qarabağ müharibəsində Naxçıvan Ordusunun hərbçiləri – həm xüsusi təyinatlılar, həm digər birləşmələrin hərbçiləri fəal iştirak etmişlər və şəhidlər vermişlər, böyük fədakarlıq göstərmişlər”.*** Prezident cənab İlham Əliyevin müvafiq sərəncamlarına əsasən ölkəmizdə sentyabrın 27-si Anım Günü, 8 noyabr tarixi isə Zəfər Günü kimi qürurla qeyd edilir.

### *Rəşadətli Ordumuz dünyanın ən güclü ordusudur*

Rəşadətli Ordumuz dünyanın ən güclü ordusu olduğunu dəfələrlə sübut edib. Həyata keçirilən hərbi əməliyyatlar ordumuzun döyüş qabiliyyətinin yüksək səviyyədə olmasını bir daha təsdiqləyir. Belə ki, ötən il Ermənistanın təxribatlarına cavab olaraq “Fərrux” əməliyyatı, “Qisas” antiterror əməliyyatı ordumuzun uğurları ilə nəticələndi. Bu il də üçtərəfli bəyanatın prinsiplərini dəfələrlə pozaraq təxribatlar törədən Ermənistana ordumuz tərəfindən layiqli cavab verilib. Qeyd edək ki, qarşı tərəf bu günə qədər dövlətimiz tərəfindən irəli sürülən sülh təklifindən yayınmaq üçün əlindən gələni edir.

Ötən il avqustun 26-da Laçın şəhərinin Zabux və Sus kəndlərinin azad edilməsi, bu il mart ayının sonunda yeni Laçın yolunun istifadəyə verilməsi ilə əlaqədar Cağazur və Zabux kəndləri arasında yerləşən bir neçə hakim yüksəklik, əsas və yardımçı yolların, eləcə də sərhədboyu geniş sahələrin nəzarətə götürülməsi, aprel ayında Laçın-Xankəndi yolunda Dövlət Sərhəd Xidmətinin sərhəd-buraxılış məntəqəsinin təsis edilməsi və orada Azərbaycanın üçrəngli bayrağının qaldırılması dövlətimizin, yenilməz, cəsur Azərbaycan Ordusunun növbəti mühüm nailiyyətidir. Bu gün Laçın şəhərində genişmiqyaslı quruculuq işləri aparılır və bu ondan xəbər verir ki, bu il laçınlılar öz doğma torpaqlarına qayıdacaqlar. Bu mənada, “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə



Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli Sərəncamı, “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” hədəflərə çatmağa xidmət edən vacib sənədlərdir. İşğaldan azad edilmiş ərazilərdə hərbi obyektlərin yenidən inşası və əsaslı təmiri, orada xidmət edən hərbi qulluqçuların sosial rifahının yaxşılaşdırılması istiqamətindəki tədbirlər davam etdirilir.

Ötən ilin oktyabr ayında Praqa və Soçi görüşlərində Ermənistanın ölkəmizin ərazi bütövlüyünü və suverenliyini rəsmən tanıması əldə edilən Zəfərin mühüm göstəricilərindən idi. Yaxşı olar ki, bu gün Ermənistan rəhbərliyi və digər rəsmi şəxsləri Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü təhdid edən açıqlamalar verməkdən yerinə sülh üçün çalışsınlar.

### *Hərbi əməkdaşlıqlar qarşılıqlı etimad üzərində qurulub*

Dövlət başçısının xüsusi diqqət və qayğısı ilə ölkəmiz müdafiə sənayesi sahəsində günü-gündən inkişaf edir. Mühüm əməkdaşlıqlar nəticəsində hərbi arsenala müasir texnika və silahlar alınır, ölkəmizdə istehsal olunan hərbi təyinatlı məhsullar ordumuzun potensialının möhkəmləndirilməsinə xidmət edir. Orduda əlaqələr “Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq konsepsiyası” əsas götürülərək yaradılır. Hərbi əməkdaşlıq zamanı Azərbaycan Respublikasının milli maraqları əsas götürülür. Hər il hərbi əməkdaşlıq çərçivəsində bir sıra mühüm görüşlər keçirilir və bu məqsədlə xarici ölkələrə səfərlər olunur. 2021-ci il iyun ayının 15-də Şuşada Azərbaycan və Türkiyə prezidentlərinin imzaladıqları “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi” ölkələrimiz arasındakı münasibətlərin bütün müstəvilərdə, o cümlədən müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım, ölkələrimizin qüdrətini artıran hərbi sənaye sahəsində əməkdaşlıq məsələlərini də özündə əks etdirir. Ölkəmizin hərbi sahədə ən mühüm tərəfdaşı olan qardaş Türkiyə Respublikası ilə keçirilən “Qardaş yumruğu”, “Bir millət, iki dövlət, tək ordu”, “Anadolu Qartalı – 2023” və digər hərbi təlimlər qardaşlığın, əsl dostluğun mahiyyətini dünyaya bəyan etməklə həm də gələcək hərbi uğurlarımızdan xəbər verir. Eyni zamanda Cənubi Qafqaz regionunda sülhün, təhlükəsizliyin təmini sahəsində hər iki ölkənin birgə səyləri dünya birliyi tərəfindən yüksək qiymətləndirilir. Digər tərəfdən, NATO hərbi təşkilatı ilə imzalanmış müvafiq proqramlar çərçivəsində hərbi qulluqçularımız ölkədən kənarda keçirilən kurs, təlim-məşq toplanışlarında uğurla iştirak edirlər. Onu xüsusilə vurğulamalıyıq ki, Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində nümayiş etdirdiyi döyüş təcrübəsi bu gün dünyanın hərbi güc mərkəzləri tərəfindən öyrənilir, tətbiq edilir.

*Ümummilli Liderimiz Heydər Əliyevin 100 illik yubileyinin böyük təntənə ilə qeyd edildiyi bu günlərdə Onun xalqımıza miras qoyduğu güclü, əzəmətli, müzəffər Azərbaycan Ordusu havada, quruda, suda Vətənimizin keşiyində məğrur dayanıb. Şanlı Zəfər tarixini yazan ordumuzla fəxr edir, qürur duyuruq, bütün şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa diləyirik.*

**Güntac ŞAHMƏMMƏDLİ**

## *“Əmlak idarəçiliyinin inkişafı: nailiyyətlər və müasir çağırışlar”* mövzusunda tədbir keçirilib



Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətində “Əmlak idarəçiliyinin inkişafı: nailiyyətlər və müasir çağırışlar” mövzusunda təşkil olunan tədbirdə xidmətin rəisi Müslüm Cabbarzadə çıxış edərək əmlak idarəçiliyinin inkişafında Ümummilli Lider Heydər Əliyevin rolundan, bu gün muxtar respublikada istər torpaq, istərsə də digər daşınmaz əmlak obyektləri üzərində mülkiyyət hüquqlarının qeydiyyata alınması və müdafiəsi sahəsində işlərin daha səmərəli təşkil edilməsi sahəsində məqsədyönlü tədbirlərdən danışıb.

Tədbirdə iştirak edən Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri Elman Cəfərli “Ümummilli Lider Heydər Əliyev və Azərbaycanda dövlət quruculuğu məsələləri” mövzusunda çıxış edib. Qeyd olunub ki, tariximizdə mühüm əhəmiyyət kəsb edən zaman – 1969-cu il iyulun 14-də hakimiyyətə gələn Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə bütün sahələrdə inkişafa nail olunub, qısa vaxtda iqtisadiyyatın bütün sahələrində əldə edilən yüksək inkişaf tempi ölkəmizi qabaqcıl respublikalardan birinə çevirib.

Xidmətin əməkdaşı Arzu Məmmədov “Müasir şəraitdə əmlak hüquqlarının qeydiyyatının təkmilləşdirilməsi” mövzusunda çıxış edib.

Sonda Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsinə həsr edilən “Xalqın adamı” sənədli filmi nümayiş olunub.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***



# Heydər Əliyev İli 100

*Dahi şəxsiyyət Heydər Əliyevin formalaşdırdığı və inkişaf etdirdiyi Azərbaycançılıq fəlsəfəsi Azərbaycanın müasir dünyada xüsusi rolunu və xidmətini müəyyən etmiş, milli dövlətçiliyimizin bünövrəsini möhkəmləndirmiş, dünya azərbaycanlılarının və türk dövlətlərinin həmrəyliyi üçün möhkəm zəmin yaratmışdır. Azərbaycanın müstəqil dövlət quruculuğuna aparan yol məhz onun hakimiyyətə gəlişindən sonra başlamışdır. Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu olan bu dahi insanın siyasi-ideoloji fəaliyyəti təkcə Azərbaycanla məhdudlaşmayıb, bütövlükdə, Türk dünyasını, ümumən, dünyanı əhatə edir. Ulu Öndər öz fəaliyyətində Türkiyəyə, türk və müsəlman dünyasına daha geniş baxaraq onları vəhdətdə görürdü.*

## Ümummilli Lider Heydər Əliyev müasir türk birliyi strategiyasının müəllifidir



Akademik İsmayıl Hacıyevin qeyd etdiyi kimi, görkəmli dövlət xadimi Heydər Əliyevi çox düşündürən problemlərdən biri də türk dövlətlərinin iqtisadi-mədəni yaxınlaşması, birliyi məsələləri, bu mühüm məsələlərin həyata keçirilməsi yollarının nəzəri əsaslarının işlənib hazırlanması olmuşdur. Bu məsələlər isə Onun yeni dövr türk birliyi strategiyasının yalnız bir qismini təşkil edir.

Ulu Öndər milli ideallarımıza həmişə böyük hörmətlə yanaşmış, milli tariximizin, dilimiz və ədəbiyyatımızın, milli mədəniyyətimizin köklərinə nüfuz etmiş, keçmiş və gələcəyimizin vəhdətinə, onun ümdə məsələlərinə diqqəti yönəltmişdir. Heydər Əliyevin siyasi-ideoloji fəaliyyəti Azərbaycanla məhdudlaşmayıb, bütövlükdə, Türk dünyasını əhatə edir.

Türk xalqlarının birliyini möhkəmləndirmək, mənəvi körpüləri qorumaq, milli kökə qayıdış, ortaq dəyərlərimizi birləşdirmək Ulu Öndərin fəaliyyətinin əsas məqsədlərindən olmuşdur.

Ümummilli Liderin təşəbbüsü ilə Azərbaycanda türkologiya sahəsində elmi araşdırmaların aparılmasına, türk yazılı abidələrinin qorunmasına, tərcüməsinə və xalq arasında təbliğinə şərait yaradılmış, türkoloqlara dövlət qayğısı göstərilmişdir. Təsadüfi deyildir ki, O elə hakimiyyətə gəldiyi ilk illərdə – 1970-ci ildə Türk dünyası elm və mədəniyyətinin mərkəzini yenidən Bakıda formalaşdırmağa təşəbbüs göstərmiş, burada beynəlxalq “Sovet türkologiyası” elmi jurnalının nəşrə başlamasına nail olmuşdur.

Ulu Öndərin Türk dünyasına diqqət və qayğısı böyük türkçü, turançı mütəfəkkir Hüseyn Cavidə münasibətində də özünü göstərmişdir. Onun nəşinin Uzaq Sibirdən Azərbaycana köçürülməsi sovet sistemində xeyli çətin, mürəkkəb bir iş olsa da, Ümummilli Lider Heydər Əliyev bu tarixi missiyasını böyük uğurla başa çatdırmışdır. Hüseyn Cavidin nəşinin gətirilməsi türkçülüyün, turançılığın Azərbaycana qaytarılması idi.

Ağır sovet sistemi şəraitində işləməsinə baxmayaraq, dahi şəxsiyyətin fəaliyyətində Türk dünyası ilə əlaqələrin qurulması və genişləndirilməsi mühüm yer tutmuşdur. Bu fəaliyyət mövcud şəraitə uyğun olaraq ehtiyatla, məharətlə və uğurla həyata keçirilmişdir. Məhz Ümummilli Liderimizin SSRİ rəhbərliyinə tövsiyəsi ilə Azərbaycan ilə qonşu türk respublikaları, o cümlədən Özbəkistan, Qazaxıstan, Türkmənistan, Qırğızıstan və başqaları arasında ədəbi-mədəni əlaqələr inkişaf etmiş, mədəniyyət günləri, yubileylər, konsertlər və digər tədbirlər keçirilmişdir. Bütün bu tədbirlər akademik İsa Həbibbəylinin təbirincə desək, xalqların bir-birinə yaxınlaşmasında, milli oyanışında mühüm rol oynamışdır. Xalqlar öz tarixi keçmişləri və gələcək inkişafı haqqında düşünmüşlər ki, bu da Türk dünyasının birləşməsi yolunda geniş strateji fəaliyyətin tərkib hissələrindən biri olmuşdur.

Böyük mütəfəkkir 1994-cü ildə dövlət başçılarının İstanbul sammitində türk dövlətlərinin əlaqələrinin inkişafına,türk xalqlarının birliyinə xüsusi önəm verərək demişdir: ***“Bizim əməkdaşlığımız zamanın hökmüdür. Bizim əməkdaşlığımız xalqlarımızın, ölkələrimizin tarixi kökləri, əsrlərboyu toplanmış adət-ənənələrinin birliyi, dil birliyi və fəaliyyət birliyi əsasında qurulub. Bu çox böyük əsasdır və biz bu imkanlardan səmərəli istifadə etməliyik”.***

Ulu Öndər Heydər Əliyev Türkiyə Cümhuriyyəti ilə əlaqələrə xüsusi fikir verirdi. O, qardaş ölkənin qurucusu M.K.Atatürkü dünyada XX əsrin ən böyük şəxsiyyətlərindən biri adlandıraraq deyirdi: ***“Ölümündən sonra da Türkiyə xalqı onun qoyduğu yol ilə gedir. Görün yol nə qədər doğru-düzgün qurulub ki, o yoldan nə sağa, nə sola dönmək mümkün deyil. Bu, Mustafa Kamal Atatürkün müdrikliyini göstərir”.*** Təsadüfi deyildir ki, Ulu Öndərin təşəbbüsü və sərəncamı ilə böyük Mustafa Kamalın irsini öyrənmək və təbliğ etmək üçün 2001-ci ildə Bakıda Atatürk Mərkəzi yaradılmışdır.

Böyük neft strategiyasının bəhrəsi olan “Əsrin müqaviləsi”nin imzalanmasında da Azərbaycanın maraqlarının qorunması ilə yanaşı, türk birliyinin mənafe və mövqeyi qətiyyətlə nəzərə alındı. Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin çəkilişində daim Türkiyə ilə eyni maraqları bölüşən Azərbaycan layihələrin gerçəkləşməsində də iki dost, qardaş xalqın mövqeyini qətiyyətlə dəstəklədi.

Minillik dünya təcrübəsi göstərmişdir ki, çoxəsrlik tariximizdə türk xalqlarını yaşadan, türk dünyası vəhdətini qoruyub saxlayan ən əsas bağlardan biri də ortaq mədəniyyət və ədəbiyyatdan ibarətdir. Çünki türk xalqları tarixboyu insan fəaliyyətinin bütün sahələrində öz istedadlarını, biliklərini, bacarıqlarını göstərmiş, elmi ixtiraları, qəhrəmanlıq nümunələri, tarixi-memarlıq abidələri, bədii əsərləri, musiqiləri ilə bəşər tarixinə parlaq səhifələr yazmışlar. Bu tarixi uğurlarda türk xalqlarının şairlərinin və yazıçılarının xidməti çox böyükdür.

Azərbaycan, həmçinin SSRİ-yə daxil olan digər türk respublikaları dövlət müstəqilliyi əldə etdikdən sonra bu əlaqələr daha da genişlənmiş və möhkəmlənmişdir. Ulu Öndər Heydər Əliyev 1996-cı ildə Türk dünyası yazıçılarının III Qurultayının ölkəmizdə keçirilməsini əlamətdar hadisə hesab etmiş və bunu Azərbaycan Respublikasına, xalqına olan hörmət və ehtiramın təzahürü kimi çox yüksək qiymətləndirmişdir.

Qurultaydakı çıxışında dahi rəhbər bildirmişdir ki, xalqlarımızın mədəniyyəti, ədəbiyyatı, şeiri bir çox məhrumiyyətlərə, çətinliklərə məruz qalmışdır. Bu çətinliklər tarixin, ola bilər ki, bəzən çox böyük mərhələlərində mədəniyyətimizə zərbələr vurmuş, ancaq mədəniyyətimizi, ədəbiyyatımızı, şeirimizi məhv edə bilməmişdir. Türkdilli xalqların bütün bu çətinliklərdən, sınaqlardan çıxmış mədəniyyəti, ədəbiyyatı, şeiri indi dünyada, bəşəriyyətdə özünəməxsus görkəmli yerini tutmuşdur.

Ümummilli Lider Heydər Əliyev türk xalqlarının əlaqələrinin möhkəmlənməsi yolunda atılan bütün addımları yüksək qiymətləndirmiş, fəaliyyəti boyu müvafiq istiqamətdə keçirilən tədbirlərin təşəbbüskarı, təşkilatçısı, iştirakçısı olmuşdur. O, TÜRKSOY Beynəlxalq təşkilatının Bakıda keçirilən 8-ci toplantısında təşkilatın yarandığı vaxtdan başlayaraq həyata keçirdiyi məhsuldar fəaliyyətini xüsusilə qeyd etmişdir. Bildirmişdir ki, TÜRKSOY xalqlarımız üçün daha çox iş görə bilər. Mədəniyyət, ədəbiyyat vasitəsilə bu əlaqələri daha da genişləndirmək xalqlarımız üçün çox lazımdır, zəruridir.

Ulu Öndər “Kitabi-Dədə Qorqud”un 1300, “Manas”ın 1000, böyük qazax şairi, filosofu Abayın 150, Özbəkistanın böyük dövlət xadimi, Türk dünyasının böyük şəxsiyyəti Əmir Teymurun 660, Azərbaycan şairi, eyni zamanda bütün Türk dünyasına mənsub olan Məhəmməd Füzulinin 500 illik yubileyinin türk dövlətlərinin bir yerdə qeyd etmələrini böyük tarixi hadisələr kimi çox yüksək qiymətləndirmişdir.

Dahi şəxsiyyət 1995-ci ildə “Manas” dastanının 1000 illik yubiley tədbirində iştirak etmək üçün Qırğızıstanın paytaxtı Bişkek şəhərinə səfər etmişdi. Bu tədbirə bütün türk xalqlarının dövlət başçıları toplaşmışdı, bu, Türk dünyasının mənəvi körpülərinin inkişafı baxımından çox əhəmiyyətli idi. Ulu Öndər dövlət müstəqilliyinin verdiyi imkanları yüksək qiymətləndirərək sonralar göstərirdi ki, biz artıq böyük Türk dünyası, türk xalqları, türk xalqlarının ümumi kökləri, müştərək mədəniyyəti, tarixi haqqında danışırıq. Bunları böyük şəxsiyyətlərin yaradıcılığı əsasında edirik. Məsələn, biz qırğız eposu “Manas”ın 1000 illik yubileyini birlikdə qeyd etdik. Bu, böyük bir hadisə oldu. Açıq deyək ki, Manasın kimliyi, onun tarixi, yaratdığı irs haqqında o vaxta qədər Azərbaycanda çox az adam bilirdi. Amma qırğızlar bunu etdilər. Biz hamımız – türkdilli ölkələrin dövlət başçıları oraya toplaşdıq. Hamımız birlikdə sübut etdik ki, bəli, bizim xalqlarımızın qədim kökü və bu xalqların müştərək tarixi, mədəniyyəti vardır.

Ümummilli Lider göstərirdi ki, “Kitabi-Dədə Qorqud” dastanının 1300 illik yubileyinin keçirilməsi məhz bu baxımdan böyük siyasi əhəmiyyət daşıyır. Ulu Öndər Heydər Əliyev 1999-cu ildə bu möhtəşəm dastanın 1300 illik yubiley komissiyasının iclasında təkidlə qeyd edirdi: ***“Əgər nəzərə alsaq ki, bizə düşmən olan erməni millətçiləri daim təbliğ edirlər ki, “bunlar köçəri xalqdır, onların keçmişi olmayıbdır”, əgər xalqımızın keçmişinə dair mənfi təbliğatı nəzərə alsaq, bu tədbirlərimizin nə qədər əhəmiyyəti olduğunu görərik. Azərbaycanın tarixində indiyədək keçirilmiş bütün yubiley mərasimlərindən “Kitabi-Dədə Qorqud” dastanının yubileyi hamısından əhəmiyyətlidir. Bu bizim tariximizin, mədəniyyətimizin, ədəbiyyatımızın qədimliyini, eyni zamanda tarixi köklərimizin 1300 il bundan əvvəlki dövründə xalqımızın böyük bir eposu olduğunu göstərir... “Dədə Qorqud” dastanı bizi bu gün, eyni zamanda birləşdirir, bir-birimizə yaxınlaşdırır. “Dədə Qorqud” həm Azərbaycanın, həm bütün Türk dünyasının dastanıdır”.***

Dahi şəxsiyyət Dünya Azərbaycanlılarının I Qurultayını təşkil etməklə (2001) təkcə Azərbaycan xalqının deyil, bütünlüklə Türk dünyasının lideri kimi tarixi missiyanı həyata keçirmişdir.

Qeyd etdiyimiz kimi, Ulu Öndər Heydər Əliyevin dünya baxışının formalaşmasında ədəbiyyat amili xüsusi yer tutmuşdur.

Ədəbiyyat vasitəsilə milli-mənəvi özünüdərk prinsiplərinin daha da dərinləşdirilməsi, Azərbaycançılıq məfkurəsinin mənimsədilməsi dahi siyasətçinin ədəbiyyat siyasətinin əsas prinsiplərindəndir. Ona görə də Türk dünyası ədəbiyyatı, ədəbi şəxsiyyətləri həmişə Ulu Öndərin diqqət mərkəzində olmuşdur. Türk dünyasında, beynəlxalq miqyasda şöhrət qazanmış filosof yazıçısı Çingiz Aytmatov Azərbaycan sənət adamları ilə sıx tellərlə bağlı idi. Hələ XX əsrin 60-cı illərindən Ulu Öndər Türk dünyasının bu görkəmli söz ustasının yaradıcılığına maraq göstərmiş, onunla dəfələrlə görüşmüş, səmimi söhbətlər etmişdir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev böyük yazıçı və ictimai xadim Ç.Aytmatovun şəxsiyyətinə və xidmətinə yüksək qiymət vermişdir: ***“Dünya ədəbiyyatı xəzinəsinə gözəl əsərlər bəxş etmiş Çingiz Aytmatov həm Qırğızıstanın, həm də bütün Türk dünyasının fəxridir”.***

Türk dünyasının fəxri, dünya şöhrətli Çingiz Aytmatovun ölkə Prezidenti tərəfindən “Dostluq” ordeninə (2008) layiq görülməsi Azərbaycan dövlətinin Türk dünyası sənətinə verdiyi yüksək qiymətdir.

Türk dünyasının tanınmış sənət adamlarından biri də qazax xalqının yetirməsi şair Oljas Süleymenovdur. O.Süleymenov 1970-ci ildə nəşr etdirdiyi “Az i ya” əsəri ilə Türk dünyasının qədim köklərə malik olduğunu elmi dəlillərlə sübut etmişdi. Lakin türk birliyi, onun qədim mədəniyyəti haqqındakı tezisləri türk düşmənlərini qəzəbləndirmişdi. Belə bir məqamda O.Süleymenovu müdafiə edən, onun haqq səsinə səs verən dahi şəxsiyyət Heydər Əliyevin də dəstəklədiyi Azərbaycan ziyalıları oldu. Azərbaycana, Ulu Öndərə böyük rəğbət bəsləyən O.Süleymenov tez-tez Bakıya səfər etmiş, bu torpağın əziz qonağı olmuşdur. Bir neçə dəfə Heydər Əliyev bu səmimi və mütəfəkkir şairi qəbul etmiş, onunla səmimi söhbətlər etmiş, Türk dünyası haqqında fikirlərini onunla bölüşmüşdür. Oljas Süleymenovun sənəti sonralar da Azərbaycanda yüksək qiymətləndirilmiş, ölkə Prezidenti onu “Şöhrət” ordeni (2006) və “Dostluq” ordeni ilə (2013) təltif etmişdir.

Hansı sosial-iqtisadi, ideoloji sistemin mövcudluğundan asılı olmayaraq, Ulu Öndər Heydər Əliyevin fəaliyyəti türk xalqları arasında əlaqələrin konkret şəraitdə inkişafına xidmət etdiyindən böyük tarixi əhəmiyyət daşımışdır.

Ümummilli Lider Heydər Əliyevin Türk dünyasının yüksəlişi barədəki strateji mövqeyini onun aşağıdakı sözləri çox aydın və açıq şəkildə göstərir: ***“Özününün yeni yüksəliş dövrünü yaşayan çağdaş Türk dünyası bəşər sivilizasiyasına yeni, misilsiz nümunələr vermək iqtidarındadır. Bu gün öz suverenliyini əldə etmiş bir çox türk cümhuriyyətlərinin bu sıraya qoşulması Türk dünyasının gələcəyinə işıqlı ümidlər oyadır”.***

Azərbaycanın Ümummilli Liderinin Türk dünyasının qarşılıqlı əlaqələrinin yüksəlişi strategiyası bu gün də uğurla davam etdirilməkdədir.

*Bu gün eyni məqsəd və məram, əqidəsinə sadiqliyi ilə hörmət və ehtiram qazanmış Ulu Öndərin siyasi kursunun davamçısı Prezident cənab İlham Əliyev tərəfindən layəqətlə yerinə yetirilir. Təsadüfi deyildir ki, günbəgün türk xalqlarının ədəbiyyat adamları, yazıçıları bir-birinə yaxınlaşır, kömək edir, xalqlarımızın ədəbiyyatını, mədəniyyətini, keçmişini, bu gününü daha geniş təhlil edib yeni-yeni dəyərli əsərlər yaradırlar. 44 günlük II Qarabağ müharibəsinin nəticələri, Türk Dövlətləri Təşkilatının fəaliyyəti, ümumiyyətlə, türk xalqlarının mədəni-iqtisadi və hərbi-siyasi əməkdaşlığının gün keçdikcə daha da genişlənməsi Ulu Öndərin Türk dünyasının gələcəyi haqqındakı arzularının həyata keçdiyini göstərir.*

**Əbülfəz QULİYEV**
***AMEA-nın müxbir üzvü,***
***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun baş direktoru***



# Heydər Əliyev İli 100

## Yeni Əfv Sərəncamı Heydər Əliyev ideyalarının layiqli davamı, humanizmə, insan hüquq və azadlıqlarına verilən ali dəyərin təntənəsidir

*Demokratik dəyərlərin başlıca meyarlarından sayılan insan hüquq və azadlıqlarının təmin olunmasına və müdafiəsinə diqqət Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra mümkün olmuşdur. Təsadüfi deyil ki, dahi şəxsiyyət cəmiyyətdə humanizm ənənələrinin təşəkkül tapmasına və möhkəmlənməsinə həssaslıqla yanaşmaqla bərabər fəaliyyətində də hər zaman mərhəmət və insanpərvərlik kimi ən ali keyfiyyətləri əldə rəhbər tutmuşdur.*

Ulu Öndərin humanizm ideyalarına böyük önəm verməsi və real həyatda bunu təcəssüm etdirən addımlar atması vətəndaş həmrəyliyinə xidmət etməklə yanaşı, insanların hakimiyyətə olan etimadını daha da artırmışdır. Təsadüfi deyil ki, Ulu Öndərin həyata keçirdiyi dövlət siyasətinin mahiyyətini özündə əks etdirən humanistliyin nəticəsində əfv və amnistiya təsisatları yaradılmış, 1995-2003-cü illərdə 7 amnistiya aktı və 32 əfv fərmanı qəbul edilmişdir. Bu amnistiya aktları 77 mindən çox insana şamil edilmiş, bunlardan 21 min 325 nəfəri cəzasının çəkilməmiş hissəsindən azad olunmuşdur. Görkəmli dövlət xadimi tərəfindən imzalanan əfv fərmanları ilə 3 mindən artıq şəxs bağışlanaraq cəzalarından azad edilmişdir. Hətta Ulu Öndər böyük humanistlik nümayiş etdirərək imzaladığı əfv fərmanları ilə 1994-1995-ci illərdə dövlət çevrilişi cəhdlərində iştirak edən insanların da bir qismini bağışlamışdır. Məhz Heydər Əliyevin humanizminin nəticəsi olaraq ölkəmizdə ölüm hökmü də aradan qaldırılmış və Azərbaycanın adı Şərqdə ilk olaraq bu cəzanı ləğv edən ölkə kimi tarixə düşmüşdür. Əvvəlcə ölüm hökmü üzərində moratorium qoyulmuş, 1998-ci ildə isə bu cəza tamamilə ləğv edilmişdir. Xatırladaq ki, cəmi bir il hakimiyyətdə olmalarına baxmayaraq, AXC-Müsavat iqtidarı bir neçə nəfərə ölüm cəzası vermişdi.

Ötən dövrdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən dəfələrlə əfv sərəncamları imzalanmışdır. Bu gün isə növbəti, həm də ən böyük humanizm nümunəsinin şahidi oluruq. Belə ki, müasir Azərbaycan dövlətinin qurucusu, dahi siyasi və dövlət xadimi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin ölkəmizin tarixində əlamətdar hadisə olduğunu vurğulayaraq, Ulu Öndərin əbədiyaşar əziz xatirəsini dərin hörmət və ehtiramla yad edərək, onun bəşəri amallara, qanunçuluq və ədalət ideallarına söykənən zəngin mənəvi irsinə sadiq qalaraq, demokratik hüquqi dövlət quruculuğu istiqamətində fundamental islahatların həyata keçirilməsində Heydər Əliyevin misilsiz xidmətlərini, insan hüquq və azadlıqlarının qorunmasına xüsusi önəm verdiyini xatırlayaraq, humanizm, mərhəmət və insanpərvərlik ənənələrini davam etdirərək, cəzadan azad olunacaq şəxslərin müstəqil dövlətimizin rifahına və cəmiyyətin inkişafına öz töhfəsini verəcəklərinə inanaraq, məhkum olunmuş bir sıra şəxslərin, onların ailə üzvlərinin, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin, insan hüquqlarının müdafiəsi təşkilatlarının Azərbaycan Respublikasının Prezidentinə ünvanlanmış əfv haqqında müraciətlərinə baxaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2023-cü il mayın 8-də "Məhkum edilmiş bir sıra şəxslərin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə əfv olunması haqqında" Sərəncam imzalamışdır.

Sərəncama əsasən 801 məhkum əfv olunmuş, onlardan 463 şəxs azadlıqdan məhrumetmə cəzasından, 220 şəxs azadlıqdan məhrumetmə cəzasının çəkilməmiş hissəsinin yarısından, 118 nəfər azadlıqdan məhrumetmə ilə bağlı olmayan digər cəzalardan (azadlığın məhdudlaşdırılması, islah işləri, cərimə cəzaları və cəzaya şərti məhkum edilmiş şəxslər) azad edilmişdir. Yeri gəlmişkən, əfv edilmiş məhkumlardan 14-ü əcnəbidir. Sərəncamla onlardan 12-si cəzadan tam, 2-si isə cəzanın yarı hissəsindən azad olunmuşdur. Müvafiq hökmlərə əsasən cəzadan azad olunduqdan sonra 4 xarici məhkumun Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarılması nəzərdə tutulur. Digər əcnəbi məhkumlar isə milliyyətcə azərbaycanlı və ya ailə üzvləri Azərbaycan Respublikasının vətəndaşı olduğundan məcburi çıxarılma onlara tətbiq edilməyəcəkdir. Bununla yanaşı, Sərəncamla hüquq-müdafiə təşkilatlarının müraciətləri əsasında 10 məhkum da cəzadan azad edilmişdir.

Ümumilikdə, bu Sərəncam şamil edildiyi şəxslərin dairəsinə görə müstəqil Azərbaycan Respublikasının tarixində qəbul edilmiş ən böyük əfv aktıdır. Müqayisə üçün qeyd olunmalıdır ki, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə qəbul edilmiş 2018-ci il 24 may tarixli Əfv Sərəncamı 634 məhkuma şamil edilmişdi.

Bunu da əlavə edək ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə qəbul edilmiş Əfv Sərəncamının may ayının 10-dək icra olunması planlaşdırılır.

Beləliklə, Azərbaycan Prezidentinin son Əfv Sərəncamı ölkəmizin humanizm prinsipləri əsasında böyük inkişaf yolu keçdiyini, demokratik dəyərlərə nə qədər önəm verdiyini bir daha nümayiş etdirir. İnanırıq ki, bu Sərəncamla əfv olunanlar dövlətin onlara etimadını doğruldacaq, layiqli vətəndaş kimi cəmiyyət həyatına öz töhfələrini verəcəklər.

**Səbuhi HƏSƏNOV**



## Ümummilli Lider Heydər Əliyevin gənclər siyasəti ölkəmizin gələcək inkişafının başlıca prioritetidir

*Ölkəmizdə dövlət gənclər siyasətinin əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulub.* ***"Hər bir xalqın, hər bir millətin, hər bir ölkənin gəncləri onun həm bu günüdür, həm də sabahıdır, ümididir"****, – deyən Ulu Öndər həyatının, demək olar, əksər hissəsini gələcəkdə elmimizi, təhsilimizi, mədəniyyətimizi, iqtisadiyyatımızı, ictimai-siyasi həyatımızı inkişaf etdirməyə qadir olan kadrlar yetişdirilməsinə sərf edib. Hakimiyyətinin hər iki dövründə gənc nəslə böyük diqqət və qayğı ilə yanaşan görkəmli dövlət xadimi hər dəfə gənclərlə görüşündə ölkəmizin gələcəyi üçün onlara böyük ümidlər bəslədiyini dilə gətirirdi.*

Ulu Öndər 1993-cü il sentyabrın 22-də respublika Ali Sovetində gənclərin nümayəndələri,1994-cü il sentyabrın 14-də isə respublikanın ali məktəblərinə daxil olmuş birinci kurs tələbələri ilə görüşündə onların problemləri ilə maraqlanıb, ölkəmizdə ali təhsilin inkişafı üçün 70-ci illərdə görülən işlərdən, ali məktəblərin yaradılması, onların maddi-texniki bazasının inkişafı üçün bir çox işlərin həyata keçirilməsindən danışıb. Dahi liderin rəhbərliyi ilə müstəqil ölkəmizin gəncləri üçün geniş miqyasda ali təhsil almaq imkanı yaranıb. Ümummilli Liderimiz böyük çətinliklə olsa da, gənclərin keçmiş sovet ittifaqının ali məktəblərinə müsabiqədənkənar göndərmək hüququ alınmış, bununla da gənclərin təhsil səviyyəsi genişləndirilmişdi.

Gənclərimizin vətənpərvərlik ruhunda, müstəqil Azərbaycanın qorunub saxlanması üçün hər cür fədakarlığa hazır olması ruhunda tərbiyə edilməsini vacib hesab edən böyük dövlət xadiminin rəhbərliyi ilə bu sahədə mühüm addımlar atılıb. Ulu Öndərin təşəbbüsü ilə 52 il bundan əvvəl Azərbaycanın milli hərbi kadrlarının formalaşdırılmasına başlanılıb, 1971-ci ildə Bakı şəhərində yaradılan Cəmşid Naxçıvanski adına Hərbi Lisey, bu mənada, mühüm rol oynayıb. Bu liseyin məzunları ordumuzun yaranmasında, Vətənimizin ərazi bütövlüyünün qorunması uğrunda mübarizədə həmişə ön cəbhədə olub, şücaətlərinə görə orden və medallarla təltif edilib, Azərbaycanın Milli Qəhrəmanı, Vətən Müharibəsi Qəhrəmanı fəxri adlarına layiq görülüblər. Naxçıvan şəhərində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi Liseyin məzunları da həmişə öz cəsarətləri və qəhrəmanlıqları ilə seçiliblər. 2020-ci il sentyabrın 27-də başlanan və tariximizə qızıl hərflərlə yazılan II Qarabağ müharibəsində gedən döyüşlərdə bu liseyin məzunları qəhrəmanlıqla iştirak edib, şəhid olub, qazilik mərtəbəsinə yüksəliblər. Torpaqlarımızı müdafiə edənlər – gənclər, eləcə də şəhidlərimizin ruhu, qəhrəmanlığı hamımız və birinci növbədə, gənclərimiz üçün böyük vətənpərvərlik örnəyidir.

***"Azərbaycanın gəncləri, uşaqları ölkəmizin, xalqımızın milli sərvətidir"***, – deyən Ulu Öndərimiz uşaqlara qayğının hər bir vətəndaşın borcu olduğunu hər dəfə diqqətə çatdırırdı. 1994-cü il dekabrın 11-də Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətinin və BMT-nin Beynəlxalq Uşaq Fondu – UNICEF Təşkilatının birgə təşkil etdiyi "Uşaqlar dünyanın sevincidir" xeyriyyə telemarafonu münasibətilə televiziya studiyasında uşaqlarla görüşündə onların Azərbaycanın müstəqilliyini gələcəkdə irəli aparacaqlarına, Azərbaycanın gələcəyini təmin edəcəklərinə böyük inamını ifadə edirdi.

Ümummilli Lider Heydər Əliyev gənclərin imkan və bacarıqlarını yüksək qiymətləndirirdi. 1994-cü ildə Gənclər, İdman və Turizm Nazirliyi yaradılması, 2006-cı ildə isə Prezident cənab İlham Əliyevin Fərmanı ilə Gənclər və İdman Nazirliyinin yenidən təşkili və gənclər siyasətinin əsas icra orqanının qarşısında yeni vəzifələrin müəyyənləşdirilməsi Azərbaycan gəncliyinin formalaşmasında və inkişafında, ölkəmizdə idmanın tərəqqisində mühüm rol oynadı. Ölkəmizdə 2 fevral tarixinin Azərbaycan Gəncləri Günü elan edilməsi, bu sahədə Dövlət proqramlarının qəbulu da Ulu Öndərimizin gənclərə böyük qayğısının göstəricisidir.

Gənclərin həm mənəvi, həm də fiziki cəhətdən sağlamlığına mühüm önəm verən Ulu Öndər Azərbaycan milli yığma komandalarının 26-cı Yay Olimpiya Oyunlarına (Atlanta şəhəri, 1996) hazırlığını nümayiş etdirmək məqsədilə keçirilmiş 5 mart 1995-ci il idman baxışında iştirakı zamanı fiziki cəhətdən güclü, hazırlıqlı və sağlam gənclərin vəzifələrinin öhdəsindən bacarıqla gələcəyini və müstəqil Azərbaycanın müstəqilliyinin təmin olunmasında ləyaqətlə iştirak edəcəklərini bildirirdi. Ümummilli Liderin gənclərlə növbəti dəfə 1996-cı il fevralın 2-də Azərbaycan Respublikası gənclərinin birinci forumunda görüşü onların fəaliyyəti, təhsili, istəklərinin və arzularının yerinə yetirilməsi üçün əsas olmuş, Azərbaycan gəncliyinə qayğı, diqqət artırılmışdır. Dahi Lider burada çıxışı zamanı Azərbaycan gənclərinin yolunu müəyyənləşdirərkən diqqət edilməli olan məsələlərə toxunaraq demişdir: ***"Hər bir Azərbaycan gənci öz həyat yolunu müstəqil Azərbaycan Respublikasının gələcək yolu kimi qəbul etməlidir və öz həyatını qurarkən, özünü həyatda fəaliyyətə hazırlayarkən və fəaliyyətə başlayıb onu davam etdirərkən özü haqqında da düşünməlidir, ailəsi haqqında da düşünməlidir, ancaq hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir".*** Dahi lider gənclərə 1995-ci ildə qəbul olunmuş müstəqil Azərbaycanın Konstitusiyasını bilməyi, öyrənməyi tövsiyə etmiş, Konstitusiyanın maddələrini, xüsusən vətəndaşların vəzifələrinə aid olan, vətəndaşların hüquqlarına aid olan maddələrini gənclərin bilməsini və ona riayət etməsini vacib hesab etmişdir.

Gənclərin əsas vəzifəsi nə idi? Təhsil almaq, Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq, Azərbaycan dilini dərindən bilmək, mənəviyyatlı olmaq. ***"Mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz"***, – deyən Ulu Öndər gənclərin mənəvi tərbiyə məsələsinə böyük önəm verirdi. Onların tariximizi, keçmişimizi, dilimizi, milli dəyərlərimizi yaxşı bilməsini vacib hesab edir və deyirdi: ***"Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik böyük bir məfhumdur. Bu, sadəcə, orduda xidmət etmək deyil, Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq – budur vətənpərvərlik".***

Digər tərəfdən, böyük dövlət xadimi müqəddəs İslam dininin, müqəddəs kitabımız "Qurani-Kərim"in gənclərimizin bu gün də, gələcəkdə də tərbiyəsi üçün çox əhəmiyyətli olduğunu diqqətə çatdırırdı.

Ulu Öndər Azərbaycan Gəncləri Gününün ilk ildönümü münasibətilə 1998-ci il fevralın 2-də keçirilən bədii-idman bayramında, eləcə də 2 fevral 2001-ci ildə Azərbaycan Gəncləri Günü münasibətilə keçirilən tədbirdə iştirak etmiş, gənclərlə görüşündə bizə yad, mənəviyyatımıza zidd olan ünsürlərin cəmiyyətimizə, xalqımızın, gənclərin əxlaqına sirayət etməsinə yol verməmək üçün gənclərə çağırış etmiş, 1998-ci il fevralın 21-də Yeni Azərbaycan Partiyasının Gənclər Birliyi nümayəndələrinin ümumrespublika toplantısında 1992-ci ildə çox ağır şəraitdə yaranan Yeni Azərbaycan Partiyasının ətrafında zəkalı, güclü, iradəli gənclərin birləşdirilməsinin vacibliyini ön plana çəkmişdir.

15 iyun 2002-ci ildə Naxçıvanda Olimpiya İdman Kompleksinin açılış mərasimində iştirak edən dahi lider Heydər Əliyev 1990-1993-cü illərdə blokada şəraitində, ağır vəziyyətdə olan Naxçıvanın inkişaf etdiyini, sağlam gələcək üçün gənclərin idmanla, bədən tərbiyəsi ilə məşğuliyyətinin əhəmiyyətini qeyd etmişdir. 2003-cü il oktyabrın 13-də keçirilən Azərbaycan Respublikası gənclərinin üçüncü forumunda görkəmli dövlət xadimi XXI əsrdə müstəqil Azərbaycanın inkişafı naminə görüləcək əzəmətli işlərin həyata keçirilməsinin əsas ağırlığının və məsuliyyətinin bugünkü gənclərin üzərinə düşdüyünü, zəngin və dərin mənəviyyata sahib, vətənpərvər gəncliyi olan xalqımızın daha böyük, daha parlaq gələcəyinə inam hissi və Azərbaycanı, Azərbaycan dövlətçiliyini yaşatmaq, onu qüdrətli etmək üçün yüksək amallı Azərbaycan gənclərinin daim hazır olmasının vacibliyinə diqqəti çəkmişdir.

Ümummilli Liderin siyasi kursunu layiqli şəkildə davam etdirən Prezident cənab İlham Əliyev gənclər siyasətinə eyni diqqət və qayğı ilə yanaşılır. Ölkə başçısı tərəfindən qəbul edilən fərman və sərəncamlar, Dövlət proqramları gənclərin sosial, iqtisadi və sair problemlərinin həllinə yönəldilmiş, onların öz qabiliyyətlərinin inkişaf etdirmələrinə kömək etmişdir. Həmçinin 2007-ci ilin "Gənclər ili" elan olunması, 2011-ci ildə Gənclər Fondu yaradılması, 2013-cü ildə ölkədə ilk dəfə "Gənclər üçün Prezident mükafatı" nın təsis olunması, Azərbaycan gənclərinin İnkişaf Strategiyasının təsdiqlənməsi həyata keçirilmiş tədbirlər sırasındadır. Bu gün ölkəmizdə, eləcə də onun ayrılmaz hissəsi olan muxtar respublikamızda gənclər vətənpərvərlik, milli dəyərlərə sadiqlik ruhunda tərbiyə olunur, öz bilikləri, bacarıqları ilə dövlətimizi dünyada təmsil edirlər.

Bu gün Azərbaycan Ordusu sıralarında Vətənin müdafiəsi kimi müqəddəs bir vəzifəni şərəflə yerinə yetirən şəxsi heyətin böyük əksəriyyəti gənclərdən ibarətdir. O gənclər ki vətənpərvərdir, mənəviyyatca saf, fiziki cəhətdən sağlamdır, hər an, hər dəqiqə Vətən torpağının müdafiəsi uğrunda mübarizəyə hazırdır. Bu gənclər 2020-ci ildə II Qarabağ müharibəsində öz sözünü dedi, əsl vətənpərvərlik, şücaət göstərməklə öz canları, qanları bahasına torpaqlarımızı işğaldan azad etdi, müqəddəs, ali zirvəyə – şəhidlik zirvəsinə, qazilik mərtəbəsinə yüksəldi. Bu gün yetişən gənclik belə qeyrətli Vətən oğullarının qəhrəmanlığından dərs götürür, xalqımız, dövlətimiz üçün çalışır.

Bu gün müstəqil Azərbaycanın gəncləri ilə fəxr edirik, inanırıq ki, "Heydər Əliyev İli"nə gənclərimiz də öz töhfəsini verəcək, ölkəmizin adını daim uca tutacaqlar.

**Güntac ŞAHMƏMMƏDLİ**

## 2023-cü il “Heydər Əliyev İli”dir

*Müstəqil Azərbaycan dövlətinin tarixinə adını qızıl hərflərlə yazan dahi şəxsiyyət Heydər Əliyevin ən böyük xidmətlərindən biri də musiqi mədəniyyətinin inkişafı və onun yaşadılması istiqamətində gördüyü işlərdir. O, musiqi mədəniyyətinə xüsusi diqqət göstərir, bəstələnən musiqiləri həvəslə dinləyirdi. Ulu Öndər deyirdi:* ***“Bizim hamımızı – azərbaycanlıları birləşdirən milli mənsubiyyətimizdir, tarixi köklərimizdir, milli-mənəvi dəyərlərimizdir, milli mədəniyyətimizdir – ədəbiyyatımız, incəsənətimiz, musiqimiz, şeirlərimiz, mahnılarımızdır, xalqa mənsub olan adət-ənənələrdir”.***

# Zəngin musiqi mədəniyyətimizin mükəmməl bilicisi və himayədarı

Görkəmli dövlət xadimi musiqinin inkişafı üçün bir çox işlər həyata keçirmiş, inkişaf mərhələsini yaxından incələyib, bu barədə sərəncamlar imzalamışdır. Dahi şəxsiyyət ənənəvi musiqinin qorunması, yeni konsert salonlarının tikilməsi, ölkələrlə musiqi ilə bağlı əməkdaşlığın güclənməsi kimi məsələlərin həll yolu ilə də, yaxından maraqlanırdı. Azərbaycanda fəaliyyət göstərən bir çox bəstəkarlar, musiqiçilər vardır ki, Ulu Öndər həmişə onlara qayğı ilə yanaşmış, xidmətlərinə görə onları mükafatlandırmışdır. Ümummilli Lider Heydər Əliyev baletlərə, operalara tamaşa edir, bəstəkarlarımızın simfonik və kamera əsərlərini dinləyirdi. Konsert proqramları bitdikdən sonra isə bir qayda olaraq müəllif və ifaçılarla görüşür, öz fikirlərini, rəyini onlarla bölüşürdü.

Azərbaycan müasir musiqi sənətinin banisi olan Üzeyir Hacıbəyovun yaradıcılığını Ulu Öndər Heydər Əliyev yüksək qiymətləndirir, onun sənət irsinə böyük qayğı ilə yanaşırdı. Ulu Öndər deyirdi: ***“Üzeyir Hacıbəyovun yaşadığı hər gün bizim üçün qiymətlidir. Üzeyir Hacıbəyovun yazdığı hər bir əsər, hər bir not vərəqi bizim üçün qiymətlidir. Üzeyir Hacıbəyovun ictimai-siyasi fəaliyyəti əvvəldən axıra qədər bizim üçün qiymətlidir. Çünki bunların hamısı Azərbaycan xalqının dirçəlməsinə, mədəniyyətinin inkişaf etməsinə, xalqımızın özünü tanımasına xidmət edibdir. Bu xidmətlər heç vaxt unudula bilməz. Bu xidmətlər əvəzsizdir”.***

Ümummilli Lider Üzeyir Hacıbəyovla yanaşı, Müslüm Maqomayev, Qara Qarayev, Cövdət Hacıyev, Fikrət Əmirov, Tofiq Quliyev, Səid Rüstəmov, Cahangir Cahangirov kimi böyük bəstəkarlarımızın, maestro Niyazi, Rəşid Behbudov, Zeynəb Xanlarova, Bülbül, Şövkət Məmmədova və digər böyük sənətkarlarımızın yaradıcılığını yüksək qiymətləndirmişdir. Dahi Öndərimiz deyirdi: ***“Fəxr edirik ki, bizim böyük bəstəkarlarımız, musiqiçilərimiz, müğənnilərimiz, mədəniyyət xadimlərimiz var. Məhz onların yaradıcılığı əsrlərboyu Azərbaycan xalqını ruhlandırmış və onu yeni nailiyyətlər, yeni hünərlər səviyyəsinə qaldırmışdır”.*** Ulu Öndərimiz Vətənini sevən bir vətəndaş kimi görkəmli sənətkarların yubileylərinin keçirilməsi haqqında sərəncamlar vermiş, dünyasını dəyişən şəxslərin xatirəsini əbədiləşdirmək üçün ev-muzeyləri yaratmışdır. Onu da qeyd edək ki, musiqiçilər tərəfindən Ulu Öndər Heydər Əliyevə həsr edilmiş bir çox əsərlər vardır ki, hər zaman sevə-sevə dinlənilir. Nümunə üçün Müslüm Maqomayevin “Azərbaycan”, Fərhad Bədəlbəylinin “Elegiya” pyesini, Ağadadaş Ağayevin “Heydər xalqım deyəcək”, Bilal Əliyevin “Heydər ata” , Azər Dadaşovun “Yeni Azərbaycan marşı”, Tofiq Bakıxanovun “Xatirə”, Hikmət Mirməmmədlinin “Ey ana Vətən”, “Azərbaycan”, Rəşad Həşimovun “Yaşa, Prezidentim, yaşa”, Nəriman Məmmədovun “Sənsən xilaskarımız”, “Qələbəyə gedən yollar” əsərlərinin adını çəkmək olar. Ümummilli Liderin ən çox sevdiyi, kövrək halda dinlədiyi, Niyaməddin Musayev tərəfindən bəstələnən və ifa olunan “Dünya sənin, dünya mənim, dünya heç kimin” mahnısıdır. Bu mahnıya o, böyük heyranlıq duymuş, yazar və bəstəkarını təltiflərlə mükafatlandırmışdır. Dahi şəxsiyyət ***“Məmməd Arazın şeirləri çoxdur, “Dünya sənin, dünya mənim” kimisi yoxdur”***, – deyirdi.

Ulu Öndər musiqi təhsilinin inkişafına yüksək peşəkar musiqiçilərin, müəllim, ifaçı və musiqişünas kadrların yetişməsi üçün tədris prosesinin elmi və praktik baxımından daim təkmilləşməsi üçün çalışırdı. Azərbaycanda fəaliyyət göstərən qədim musiqi təhsil ocağı olan Azərbaycan Dövlət Konservatoriyasının 1972-ci ildə yüksək səviyyədə 50 illik yubileyi keçirilmişdir. Yubileyin təntənəli açılışında Ümummilli Lider Heydər Əliyev də iştirak edərək öz təbrikini müəllim və yaradıcı kollektivə, qonaqlara bildirmiş, Konservatoriyanın musiqimizin inkişafında böyük rolunu yüksək qiymətləndirmiş, onlara yeni nailiyyətlər arzulamışdır. Dahi şəxsiyyətin mədəniyyət siyasətinin əsas məqsədlərindən biri doğma yurdumuzun gənclərin də, məktəblilərin də, yeniyetmələrin də musiqi mədəniyyətinin olması, onların musiqiyə olan marağının artırılması idi. Bununla yanaşı, Ulu Öndər gənc istedadlara qayğı göstərilməsi məqsədilə fərman və sərəncamlar imzalayıb, gənclərin musiqi təhsilinin artırılması üçün Milli Konservatoriya yaradıb və gənc yazıçılar, ifaçı və bəstəkarlarla mütəmadi olaraq görüşərək tapşırıq və tövsiyələrini çatdırırdı. Ali musiqi məktəbi Azərbaycan Respublikası Prezidenti Ulu Öndər Heydər Əliyevin 2000-ci il 13 iyun tarixli “Azərbaycan Milli Konservatoriyası”nın təsis edilməsi haqqında Fərmanı ilə yaradılıb. 10 avqust 2001-ci il tarixli “Azərbaycan Milli Konservatoriyasının maddi-texniki bazasının yaradılması haqqında” Sərəncama əsasən Azərbaycan Milli Konservatoriya tərkibinə Bakı Musiqi Kolleci və Respublika İncəsənət Gimnaziyası daxil olmuşdur. Ümummilli Liderin atdığı bu addımlar gələcək üçün atılan addımlar idi. Ulu Öndər həmişə deyirdi: ***“Xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, öz elmi ilə tanınır”.*** Görkəmli dövlət xadimi Heydər Əliyev tərəfindən musiqi mədəniyyətinin rifahı üçün ölkədə Dövlət Mahnı Teatrı, Ş.Məmmədova adına Opera Studiyası, yeni uşaq musiqi və incəsənət məktəbləri, musiqi texnikumları üçün binalar tikilib, istifadəyə verilib. Dahi şəxsiyyət Azərbaycan xalqının milli mədəni dəyərlərinin yaşadılması naminə həyata keçirdiyi işlərlə mədəniyyətimizin hamisi kimi xalqımızın qəlbində əbədiyaşarlıq qazanmışdır.

**Səkinə BAĞIROVA**

***Məqalə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə keçirilən “Dahilik zirvəsi” esse müsabiqəsinə təqdim edilir.***

# Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbirlər keçirilib



Mayın 8-də Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Filarmoniyası və Naxçıvan Şəhər Mədəniyyət İdarəsinin Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş konserti keçirilib. Heydər Əliyev Muzeyinin qarşısında təşkil olunan konsert proqramının aparıcıları bildiriblər ki, bu il Azərbaycanın memarı və qurucusu, dünya şöhrətli siyasətçi, xalqımızın müdrik oğlu, Ulu Öndər Heydər Əliyevin yubileyi ölkəmizin hər yerində böyük coşqu və təntənə ilə qeyd olunur.

Naxçıvan Dövlət Filarmoniyasının Simfonik Orkestri, Naxçıvan Dövlət Filarmoniyası və Naxçıvan Şəhər Uşaq Musiqi və İncəsənət Məktəbinin birləşmiş xor kollektivinin ifasında Azərbaycan Respublikasının Dövlət Himni ilə başlayan konsertdə məşhur bəstəkarların Ulu Öndərə həsr etdikləri, dahi rəhbərin sevdiyi əsərlər, həmçinin vətənpərvərlik ruhu aşılayan mahnılar ifa edilib, xalq mahnıları, rəngarəng rəqs nömrələri təqdim olunub. Konsert zamanı təqdim edilən “Koroğlu” operasından “Uvertüra”, “Azərbaycan”, “Qarabağ”, “Doğma diyarım”, “Yaşa, mənim xalqım”, “Xalq Heydər deyəcək”, “Nə gözəldir Azərbaycan” və digər mahnılar Əməkdar artistlər – Tural Nəcəfov, Mübariz Əsgərov, Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Zülfiqar Mahmudov, Ruhiyyə Hüseynova, Hünər Əliyev və filarmoniyanın solistləri tərəfindən səsləndirilib. Filarmoniyanın və Naxçıvan Şəhər Uşaq Musiqi və İncəsənət Məktəbinin rəqs qrupunun təqdim etdiyi rəqs nömrələri tamaşaçılarda xoş əhvali-ruhiyyə yaradıb. Alqışlarla müşayiət olunan konsert proqramı Naxçıvan Dövlət Filarmoniyası və Naxçıvan Şəhər Uşaq Musiqi və İncəsənət Məktəbinin birləşmiş xor kollektivinin təqdimatında “Ürəklərdə yaşayacaqsan” əsəri ilə sona çatıb.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

* * *

*Naxçıvan “Balıqçılıq Təsərrüfatı” Açıq Səhmdar Cəmiyyətinin sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Nazim Məmmədov və cəmiyyətin əməkdaşları Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbir çərçivəsində əvvəlcə dahi şəxsiyyətin şəhərimizin baş meydanında əzəmətlə ucalmış abidəsi önünə gül dəstələri qoyublar, dünya şöhrətli dövlət xadiminin xatirəsinə ehtiramlarını bildiriblər.*

Sonra Heydər Əliyev Muzeyinə baxış olub. Məlumat verilib ki, Naxçıvan şəhərinin mərkəzində yerləşən bu mədəniyyət müəssisəsi 1999-cu il mayın 10-da 420 eksponatla fəaliyyətə başlayıb, hazırda burada beş mindən çox eksponat var. Muzeyin ayrı-ayrı bölmələrində Ulu Öndər tərəfindən qəbul edilmiş qərar və sərəncamlar, imzalanmış protokol və müqavilələr, dahi şəxsiyyətin həyat və siyasi fəaliyyətini özündə əks etdirən kitab, qəzet və jurnallar, həmçinin 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasının rəhbəri olarkən istifadə etdiyi əşyalar, o cümlədən Ümummilli Liderə göndərilmiş məktub və teleqramlar, xatirə əşyaları şərəfli yolun müxtəlif anlarını özündə yaşatmaqla görkəmli dövlət xadiminin zəngin dövlətçilik və ictimai-siyasi irsi barədə dolğun təsəvvür yaradır.

**Xəbərlər şöbəsi**

# Boks turniri başa çatıb




İlham Əliyev adına Olimpiya İdman Kompleksində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş boks üzrə muxtar respublika turniri keçirilib. Yeniyetmə və gəncləri əhatə edən yarışda 82 boksçu qüvvəsini sınayıb. Mükafatçılar 13 çəki dərəcəsi üzrə mübarizə aparıb.

Üç gün davam edən yarışa mayın 6-da keçirilən final görüşləri ilə yekun vurulub. Bağlanış mərasimində Dövlət Himni səsləndirilib. Sonra Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin şagirdləri tərəfindən milli musiqi və rəqs nümunələri izlənilib.

İlk üç yerin sahibi diplom və medallarla təltif olunub. Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Ramil Hacı, nazir müavini Məcid Seyidov bağlanış mərasimində iştirak edib, idmançılara mükafatları təqdim ediblər.

Nəticələrə gəlincə, Ucal Musayev (46 kiloqram), Mirkərim Seyidov (48 kiloqram), Hüseyn Qənbərli (50 kiloqram), Babək Babayev (52 kiloqram), Kənan Həsənov (54 kiloqram), Ruhin Səfərov (57 kiloqram), Ayxan Heydərov (60 kiloqram), Alışan İsmayılov (63 kiloqram), Sərvan Abdullayev (67 kiloqram), Nadir Cəfərov (69 kiloqram), Abbas Məmmədov (71 kiloqram), Nöfər Əlizadə (75 kiloqram) və Kənan Allahverdiyev (80 kiloqram) öz çəki dərəcələri üzrə birinci olublar.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Naxçıvan Boks Federasiyası tərəfindən birgə təşkil olunan birincilik Ümummilli Liderin əziz xatirəsini yad etmək, boksun inkişafına töhfə vermək və idmançıların yarış təcrübəsini artırmaq məqsədi daşıyıb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

# Naxçıvanda Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş təmizlik və yaşıllıqlara qulluq aksiyası keçirilib



***“Təbiətin ölkəmizə bəxş etdiyi zəngin sərvətlərə qayğı ilə yanaşmaq, belə misilsiz xəzinələri bəşəriyyətin gələcəyi naminə qorumaq üzərimizə düşən başlıca vəzifədir”***, – deyən Ulu Öndər Heydər Əliyevin bu müdrik fikirləri Naxçıvan Muxtar Respublikasında bu gün də uca tutulur, sosial-ekoloji siyasət uğurla davam etdirilir. Ekoloji tarazlığın qorunması, insan sağlamlığı üçün zəruri olan ətraf mühitin yaşıllaşdırılması məqsədilə tədbirlər görülür, yeni ağaclar əkilib-becərilir.

Bu tədbirlərin davamı kimi, mayın 6-da muxtar respublikanın şəhər və rayonlarında Ümummilli Liderin 100 illik yubileyinə həsr olunmuş təmizlik və yaşıllıqlara qulluq aksiyası keçirilib. Aksiyada Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabinetinin, nazirlik, komitə, dövlət hüquq-mühafizə orqanlarının, idarə və təşkilatların kollektivləri iştirak ediblər. Aksiya çərçivəsində Nəzərabad kəndi yaxınlığında terrasda və şəhər ərazisində, Gömrük məntəqəsinə gedən yolun və Yuxarı Daşarx-Dizə kəndi yolunun kənarlarında, Naxçıvan-Ordubad magistral yolunun kənarlarında, Naxçıvan-Sədərək magistral avtomobil yolunun Böyükdüz kəndi hissəsindəki bağlarda, Naxçıvan-Şahbuz-Batabat magistral yolunun Şıxmahmud kəndi hissəsində yol kənarlarında və digər sahələrdə meyvə bağları və yaşıllıq sahələrinə qulluq göstərilib. Ərazilər alaq otlarından təmizlənib, ağacların dibləri yumşaldılıb, ağardılıb və suvarılıb.

Qeyd edək ki, muxtar respublikanın rayonlarında Ulu Öndərin 100 illiyi ilə bağlı keçirilən təmizlik və yaşıllıqlara qulluq aksiyasında yüksək fəallıq nümayiş olunub. Həmin gün iməciliklərdə 15 min 730 nəfər iştirak edib. Ümumilikdə, 30 hektar yaşıllıq sahəsində ağaclara aqrotexniki qulluq göstərilib, budama və ağartma işləri görülüb. Yaşıllaşdırma aksiyası çərçivəsində 127 həmişəyaşıl ağac və 300 gül kolu əkilib.

Xatırladaq ki, Prezident cənab İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli Sərəncamına əsasən 2023-cü il “Heydər Əliyev İli” elan edilib, bununla əlaqədar 28 noyabr 2022-ci il tarixdə təsdiq olunmuş Tədbirlər Planına əsasən martın 11-də də Naxçıvan Muxtar Respublikasında Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş könüllü ağacəkmə aksiyası keçirilib. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollektivləri, eyni zamanda ekologiya könüllülərinin iştirak etdiyi ağacəkmə aksiyasında 19 mindən artıq sakin iştirak edib, 40 min meyvə və meşə tingi əkilib.

**Xəbərlər şöbəsi**


### İtmişdir

Naxçıvan şəhəri, Yunis Cabbarov küçəsi 28 ünvanında yaşamış İbadov Aydın Rəhman oğluna məxsus 309 inventar nömrəli texniki pasport və 10389 nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı itdiyindən etibarsız sayılır.

***

Əliyev Musa Elçin oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, “İstiqlal” küçəsi, bina 103, mənzil 25 ünvanında Həsənov Yadulla İbrahim oğlunun adına olan 6710 inventar nömrəli texniki pasport və MH 0016961 nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı itdiyindən etibarsız sayılır.

***

Sadiqli Arzuman Nəcəf oğlunun adına “Naxçıvan” Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Zeyvə kəndində yaşamış Allahverdiyev Musa İbrahim oğlunun adına verilmiş JN-245$^{B}$ inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 318